# GÜRCÜSTAN

Qəzet 1921-ci ildən nəşr olunur
გაზეთი 1921 წლიდან იბეჭდება

"საქართველო"
"SAKARTVELO"

Qəzetimiz milli sərvətimizdir
ჩვენი გაზეთი ეროვნული სიმდიდრეა

SAYI 43-44 (13.413)
CÜMƏ 6 İYUN 2025-ci il

İctimai-siyasi həftəlik qəzet // საზოგადოებრივ-პოლიტიკური კვირეული გაზეთი

E-mail: Gurcustan_1921@mail.ru  www.gurcustan.com  E-mail: gurcustan2023@gmail.com


## BAŞ NAZİRİN HESABATI: "GÜRCÜSTAN Aİ VƏ NATO İLƏ İNTEQRASİYANI FƏAL ŞƏKİLDƏ DAVAM ETDİRİR"



***Baş nazir İrakli Kobaxidzenin parlamentə təqdim edəcəyi illik hesabatda Avropa İttifaqı (Aİ) və NATO ilə yaxınlaşma istiqamətində aparılan intensiv fəaliyyətlərə geniş yer verilib.***

Hesabat 27 iyun tarixində parlamentə təqdim olunacaq. Baş nazir bildirib ki, Aİ ilə hüquqi uyğunlaşmanın effektiv koordinasiyası üçün hökumətlərarası işçi qrupu yaradılıb və bu qrup 2024–2025-ci illəri əhatə edən fəaliyyət planı hazırlayıb. Həmin plan Avropa İttifaqı ilə hüquqi yaxınlaşmaya dair öhdəlikləri müəyyən edir. Hesabatda qeyd olunur ki, Gürcüstan Avropa Komissiyasının 2024-cü il genişlənmə hesabatında yer alan tövsiyələrin icrasına başlayıb. Məlumata görə, uyğunlaşma səviyyəsi artıq 50%-i ötür. Eyni zamanda, Aİ Ədalət Məhkəməsinin qərarlarının milli qanunvericilikdə əks olunması prosesi də mərhələli şəkildə həyata keçirilir. Baş nazirin hesabatında NATO ilə əməkdaşlıq istiqamətində də əhəmiyyətli irəliləyişlər vurğulanıb. Bildirilir ki, Gürcüstan nümayəndə heyəti NATO-nun 75 illiyi münasibətilə keçirilən yubiley sammitində iştirak edib. Bundan əlavə, Gürcüstanın 2024-cü il üzrə illik milli proqramı (ANP) və NATO ilə fərdi tərəfdaşlıq proqramı (ITPP) üzrə sənədlər hazırlanaraq alyansın qərargahına təqdim olunub. Qeyd olunur ki, hesabat dövründə Avropa ölkələri ilə yüksək səviyyəli diplomatik təmaslar intensiv xarakter daşıyıb. Macarıstanın Baş naziri Gürcüstana səfər edib, Xarici İşlər Naziri isə Macarıstana, Lüksemburqa və Avstriyaya səfərlər həyata keçirib. Gürcüstan nümayəndə heyəti həmçinin Roma Papası Fransiskin dəfn mərasimində və yeni Papa Leonun taxta çıxma mərasimində iştirak edib. Baş nazirin özü 2024-cü ilin iyulunda Birləşmiş Krallığa, noyabrda Macarıstana, 2025-ci ilin mayında isə Albaniyaya səfər edərək Avropa Siyasi Birliyinin sammitlərində iştirak edib. Hesabatda Qərbi Balkan regionuna artan diqqət də qeyd olunub. Belə ki, Serbiya 2025-ci ildə Tbilisidə səfirlik açmaq qərarını verib. ABŞ - nin ilə ikitərəfli münasibətlər də hesabatda xüsusi yer alıb. 2024-cü ildə ABŞ Dövlət katibinin müavini Ezra Zeya və ABŞ-ın iki partiyalı, iki palatalı parlament nümayəndə heyəti Gürcüstana səfər edib. 2025-ci ilin aprelində isə Gürcüstanın rəsmi nümayəndə heyəti Dünya Bankı və BVF-in yaz toplantılarında iştirak etmək üçün Vaşinqtona səfər edib, bir sıra yüksək səviyyəli görüşlər keçirib. Hesabatda ABŞ-ın FY24 və FY25 üzrə qəbul etdiyi qanunlarda Gürcüstanın ərazi bütövlüyünün dəstəklənməsi və illik maliyyə yardımlarının ayrılması xüsusi olaraq vurğulanıb.

## BMT BAŞ ASSAMBLEYASI GÜRCÜSTANIN QAÇQINLARLA BAĞLI QƏTNAMƏSİNİ QƏBUL EDİB



***BMT-nin Baş Assambleyası "Abxaziya (Gürcüstan) və Tsxinvali bölgəsindən/Cənubi Osetiya (Gürcüstan) – məcburi köçkünlərin və qaçqınların statusu haqqında" adlı qətnaməni qəbul edib.***

Bu barədə məlumatı Gürcüstanın xarici işlər naziri Maka Boçorişvili yayıb.

Onun sözlərinə görə, 2025-ci il sessiyasında Gürcüstanın təşəbbüsünü rekord sayda – 107 ölkə dəstəkləyib.

*"Qətnamənin həmmüəllifi olan və ona səs verən bütün dövlətlərə dərin təşəkkürümü bildirirəm. Xüsusi təşəkkürüm Gürcüstanın BMT-dəki səfiri Davit Bakradzeyə, nazir müavini Laşa Darsaliaya və bu böyük dəstəyi təmin etmək üçün yorulmadan çalışan bütün diplomatlarımıza düşür,"* – deyə Boçorişvili qeyd edib.

## DÖVLƏT NAZİRİ CENEVRE HƏMSƏDRLƏRİ İLƏ GÖRÜŞÜB



***Barışıq və Vətəndaş Bərabərliyi Məsələləri üzrə Dövlət naziri Tea Axvlediani Cenevrə Beynəlxalq Danışıqlarının həmsədrləri - Avropa İttifaqının Cənubi Qafqaz və Gürcüstandakı böhran üzrə xüsusi nümayəndəsi Maqdalena Qrono, BMT-nin Cenevrə Beynəlxalq Danışıqlar üzrə nümayəndəsi Cihan Sultanoğlu və ATƏT-in fəaliyyətdə olan sədrinin Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Kristof Şpet ilə görüş keçirib.***

Dövlət naziri Gürcüstanın beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində suverenliyinə və ərazi bütövlüyünə göstərdikləri güclü dəstəyə görə xarici diplomatlara təşəkkür edib.

Görüşdə Cenevrə Beynəlxalq Danışıqlarının əhəmiyyəti və humanitar məsələlər də daxil olmaqla gündəmdə irəliləyişə nail olunmasının zəruriliyi müzakirə olunub.

Tea Axvlediani Gürcüstanın işğal olunmuş rayonlarında mövcud təhlükəsizlik, humanitar və insan haqlarının vəziyyətini təqdim edib. Bundan əlavə, Dövlət naziri qonaqları münaqişədən zərər çəkmiş əhalinin sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılmasına, ümumi maraqlara əsaslanan süni şəkildə parçalanmış cəmiyyət arasında dialoqun dərinləşdirilməsinə və etimadın bərpasına yönəlmiş barışıq və cəlbedicilik siyasətinin həyata keçirilməsində əldə olunmuş nailiyyətlər və gələcək baxışlarla tanış edib.

Tərəflər sıx əməkdaşlığı davam etdirmək barədə razılığa gəliblər.

## AZƏRBAYCAN MİLLİ MƏCLİSİNİN NÜMAYƏNDƏ HEYƏTİ GÜRCÜSTANDA SƏFƏRDƏDİR



***İyunun 3-də Azərbaycan Milli Məclisinin nümayəndə heyəti Gürcüstana səfər edib. Səfər çərçivəsində nümayəndə heyəti Gürcüstan parlamentinin Təhsil və Elm Komitəsinin sədri Qivi Mikanadze ilə görüşüb.*** Görüşdə parlamentlərarası əməkdaşlığın son dövrlərdə daha da sıxlaşdığı vurğulanıb. Qivi Mikanadze bildirib ki, son 6 ayda Azərbaycan və Gürcüstan parlamentləri arasında 7 görüş keçirilib. Gürcüstanla parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Arzu Nağıyev çıxışında qeyd edib ki, ölkələrimiz arasında əlaqələr artıq strateji tərəfdaşlıq səviyyəsindədir və bu münasibətlərin inkişafında liderlərin rolu böyükdür. Görüş zamanı qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə olunub. Qeyd edək ki, Azərbaycan parlamentinin nümayəndə heyəti Gürcüstanda bir sıra rəsmi görüşlər keçirəcək.

## QURBAN BAYRAMINIZ MÜBARƏK!



Bu gün Qurban Bayramını qeyd edirik. Müsahibimiz Bütün Gürcüstan Müsəlmanları İdarəsinin Şeyxi Hacı Faiq Nəbiyevdir.

**— *Hacı, ilk öncə, bayramınızı təbrik edirəm. Qurban Bayramı nədir, müsəlmanlar arasında önəmi nəyə görədir?***

—Mən də sizin bayramınızı təbrik edirəm. Qurban Bayramı İslamın müqəddəs dəyərləri sırasında xüsusi yer tutan, tohid və itaət ruhunu yaşadan mübarək bir gündür. Bu gün Hz. İbrahimin (ə) Allahın əmrinə qeyd-şərtsiz itaəti və Hz. İsmayılın (ə) fədakarlığı ilə yadda qalmış, bəndə ilə Yaradan arasındakı səmimi bağın təcəssümünə çevrilmişdir.

Allah-Təala Qurani-Kərimdə buyurur:

*"Onların (kəsilən heyvanların) nə ətləri, nə də qanları Allaha çatar, ancaq sizin təqvanız Ona çatar.* **(Əl-Həcc surəsi, 37-ci ayə)**

***"(Davamı səh. 2 -də)***

## İTALİYA VƏ GÜRCÜSTAN: SÜRÜCÜLÜK VƏSİQƏLƏRİ QARŞILIQLI TANINACAQ

***Roma səfəri çərçivəsində Gürcüstan xarici işlər nazirinin müavini Qiorqi Zurabaşvili və Gürcüstanın İtaliyadakı polis attaşesi Vladimir Borçvadze İtaliya Respublikasının Nəqliyyat və İnfrastruktur Nazirliyində sürücülük vəsiqələrinin qarşılıqlı tanınması məsələsi ilə bağlı görüş keçiriblər.***

Gürcüstan Daxili İşlər Nazirliyinin məlumatına görə, görüşdə tərəflər bu mövzunun əhəmiyyətini vurğulayıblar. Qeyd olunub ki, razılaşma İtaliyada yaşayan Gürcüstan vətəndaşlarına imtahan vermədən gürcü sürücülük vəsiqəsini italyan sürücülük vəsiqəsinə dəyişmək imkanı verəcək.

Tərəflər razılaşmanın məzmununu müzakirə ediblər və müvafiq prosedurların operativ şəkildə tamamlanmasından sonra sənədin imzalanmasına ümid ifadə ediblər. İtaliya tərəfi isə əməkdaşlığa tam hazır olduğunu bildirib.

Qeyd olunur ki, Gürcüstan və İtaliya arasında bu razılaşmanın imzalanması ilə bağlı intensiv danışıqlar artıq bir neçə ildir davam edir. Gürcüstanın oxşar razılaşmaları İspaniya, Yunanıstan və İrlandiya ilə artıq mövcuddur.

## ZURAB PATARADZE YENİDƏN AZƏRBAYCANA SƏFİR TƏYİN EDİLİB



***Baş nazir İrakli Kobaxidze onun namizədliyini prezident Mixeil Kavelaşviliyə təqdim edib və prezident bu təklifi təsdiqləyib.***

Yeni qərara əsasən, Pataradze 2025-ci il iyunun 1-dən etibarən Gürcüstanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri olaraq fəaliyyətini davam etdirəcək.

Xatırladaq ki, o, bu vəzifəni ilk dəfə 2018-ci ilin avqust ayından icra edib və onun əvvəlki səlahiyyət müddəti bu il, iyunun 1-də başa çatıb.

# YENİ DAXİLİ İŞLƏR NAZİRİ POLİS İDARƏLƏRİNİN RƏİSLƏRİ İLƏ MÜŞAVİRƏ KEÇİRİB



***Yeni təyinat alan Daxili işlər naziri Qela Qeladze nazirin birinci müavini Roland Mesxi ilə birlikdə polis idarələrinin rəhbərləri ilə görüşüb.***

Bu barədə Daxili İşlər Nazirliyi məlumat yayıb.

Məlumata görə, daxili işlər naziri polis bölmələrinin nümayəndələrini Polis Günü münasibətilə təbrik edib, onlara xidmətlərinə görə təşəkkür edib, onlara uğurlar arzulayıb.

Polis idarələrinin rəisləri Qela Qeladzeyə bölgələrdə həyata keçirilən polis tədbirləri və cinayətkarlıqla mübarizədə mövcud vəziyyət barədə ətraflı məlumat veriblər.

Daxili işlər naziri müşavirədə nazirliyin fəaliyyətinin prioritet istiqamətlərinə diqqət çəkib, idarə rəislərinə müvafiq tapşırıqlar verib.

*(Əvvəli səh. 1-də)*

# QURBAN BAYRAMINIZ MÜBARƏK!

Bu ayə bizə bildirir ki, Qurban Bayramı sadəcə bir ritualla məhdudlaşmır. Əsas olan niyyətin paklığı, təqva, Allaha təslimiyyət və mömininin mənəvi yüksəlişidir. "Qurban" sözünün mənası "yaxınlaşmaq" deməkdir. Qurban – insanın içindəki eqoya, mənliyə qarşı çıxması, mərhəmət, paylaşma və fədakarlıq ruhudur.

***—Hacı, paylaşmaq dediniz. Bu gündə qurban payları verilir və aylarla ət yeməyən insanların da evində ət bişir. Bu barədə nə deyə bilərsiniz?***

— Bəli, qeyd etdiyim kimi, bütün bayramların bir mənəvi, bir də ictimai yönü olur. Qurban Bayramı da təkcə fərdi ibadət deyil, cəmiyyətin ehtiyaclarına cavab verən bir ibadətdir. Bu gündə kəsilən qurbanlar yoxsullarla bölüşülür, qəlblər yaxınlaşır və müsəlmanların həmrəylik ruhu güclənir. Düz buyurursuz, bu bayramda ən çox ehtiyacı olanı önə salmaq böyük savabdır. Lakin qurban kəsən şəxs ətin üçdə birini özünə, üçdə birini istədiyi mömin-müsəlmana, digər üçdə birini isə yoxsul möminə-müsəlmana versə yaxşıdır.

***—Hacı, Qurban kəsilməsi müsəlmanlara vacibdirmi?***

—Qurbanlıqda qurban kəsilməsi ancaq hacılara təkid olunur. Lakin müstəhəb – yəni savab niyyətilə hər bir müsəlman qurban kəsə bilər və təbii, bu yolla kasıb və ehtiyaclılara qurban payı verməklə böyük savab əldə edər.

***—Hacı, qurbanlıq hansı heyvanlardan olmalıdır?***

—Qurbanlıq heyvan dəvə, ya inək və ya qoyun (keçi) olmalıdır. Şəriətə görə, 5 yaşından aşağı dəvə, 2 yaşından aşağı inək və keçi və 7 aylığından aşağı qoyunun qurban kəsilməsi rəva görülmür.

***—Hacı Qurban bayramı ilə bağlı digər tövsiyələriniz və ürək sözlərinizi dinləmək istərdik.***

—İlk öncə, bu bayram günü Allaha şükr etmək istəyirəm. Çünki Gürcüstanda yaşayan müsəlmanlar olaraq biz bu bayramı həm dini ayin kimi, həm də cəmiyyətin mənəvi güzgüsü kimi qeyd edirik. Bu mübarək gündə etnik və dini müxtəliflik içində birgəyaşayışın nümunəsi olan Gürcüstan cəmiyyətinə də təşəkkür edir və birlik, bərabərlik və qarşılıqlı hörmətin daimi olmasını arzulayırıq.

İkinci olaraq, hər bir kəsə bu bayramı fürsət bilib küsülü olduğu şəxslərlə barışmasını tövsiyə edirəm. Həmçinin valideynlərə və yaşlı qohumlara baş çəkmək, onların xeyir - dualarını almaq da bütün bayramlarda olduğu kimi, bu bayramda da çox yaxşıdır. Bu gün hər bir insan üçün Allaha tərəf yaxınlaşması üçün bir fürsətdir. Odur ki, bu gündə Allaha xatir ibadət, dua və sədəqələrimizlə yaxşı bəndələrin sırasına yazıla biləcəyik. Allah bizi yaxşı bəndələrindən qərar versin.

Son olaraq bu gözəl bayram münasibətilə bütün Gürcüstan müsəlmanlarını və dünya müsəlmanlarını səmimi qəlbdən təbrik edirəm. Qurbanlarımız qəbul olsun, dualarımız cavabsız qalmasın, evlərimizə bərəkət, cəmiyyətimizə sülh və əmin-amanlıq hakim olsun.

***— Hacı, müsahibəyə görə çox sağ olun !***

*Müsahibəni apardı: Xaləddin* **Yolçuyev**

# TÜRKİYƏDƏN GÜRCÜSTANA QURBANLIQ HEYVANLAR GÖNDƏRİLİB



***Türkiyə Cümhuriyyəti, hər il olduğu kimi, bu il də Gürcüstandakı aztəminatlı müsəlman ailələrə qurbanlıq heyvanlar göndərib.***

Belə ki, Türkiyə Diyanət Vəqfi tərəfindən Gürcüstandakı aztəminatlı müsəlman ailələr üçün ümumilikdə 200 baş iribuynuzlu heyvan göndərilib.

Bütün Gürcüstan Müsəlmanları İdarəsinin Şərqi Gürcüstan üzrə müftisi Etibar Eminov bildirib ki, əvvəlki illərlə müqayisədə Türkiyə dövləti bu il daha çox qurbanlıq ehsan edib.

Müfti eyni zamanda bildirib ki, Şərqi Gürcüstan müftiliyinin təşəbbüsü ilə bu il ilk dəfə olaraq Avropada fəaliyyət göstərən HASENE Vəqfi Gürcüstan müsəlmanlarına 30 baş iribuynuzlu heyvanla dəstək göstərəcək.

## Qəzetimizin xronikası

- Gürcüstanın baş prokuroru Qiorqi Qabetaşvili tutduğu vəzifədən azad olunaraq, baş audit vəzifəsinə təyin edilib.
- Gürcüstanda NATO və Aİ üzrə informasiya mərkəzi bağlanır.
- Gürcüstan İT mütəxəssisləri üçün xüsusi yaşayış icazəsi tətbiq etməyi planlaşdırır.
- Marko Rubio: "Gürcüstan xalqının azadlığa olan bağlılığı ruhlandırıcıdır".
- Daxili işlər nazirinin müavini İoseb Çelidze istefa verib.
- M. Kavelaşvili Trampın təbrikini Gürcüstanla münasibətləri bərpa etməyə hazır olması kimi qiymətləndirib.
- Acarıstan hakimiyyəti Xulo-Taqo kanat yolunu bərpa etməyi planlaşdırır.
- Kutaisidən təyyarələr Fransanın Lion şəhərinə uçmağa başlayıb.
- Uhandan Çin-Avropa ekspress yük qatarı Gürcüstana marşrut açıb.
- Apreldə Gürcüstanda ÜDM-in real artımı 2024-cü ilin eyni dövrü ilə müqayisədə 7,5% təşkil edib.
- ABŞ iyun ayının "ailə ayı" elan edilməsini və bu ayın "LGBTQ ideologiyasından" azad edilməsini təklif edib.
- Gürcüstan Parlamenti şəxsiyyət vəsiqələrində "milliyət" qrafasının qaytarılması ideyasını müzakirə edəcək.
- Gürcüstan Milli Bankı iyunun 4-dən Gürcüstanın milli valyutası larinin 30 illiyi şərəfinə kolleksiya sikkələrinin satışına başlayıb.
- "Gürcüstanı yeni Xorvatiyaya çevirmək" - hökumət idmanın inkişafı proqramına start verir.
- Gürcüstanda böyük şəhərlər arasında yalnız avtobusla səyahətə icazə veriləcək.
- Vaziani hava limanının alternativi yoxdur – Gürcüstan Baş nazirinin müavini Levan Davitaşvili.
- İ. Kobaxidze Karol Navrotskini Polşa prezident seçkilərində qələbəsi münasibətilə təbrik edib.

## Sitat guşəsi



"Qanunun aliliyi təmin olunmalıdır. Əgər girovu ödəməsən, həbs olunacaqsan. Əgər başqa formada qanunu pozsan – məsələn, istintaq komissiyasının iclasına gəlməsən – bu halda da müvafiq cavab alacaqsan".

**İrakli Kobaxidze,**
**Gürcüstanın Baş naziri.**



"Son illərdə baş verən qlobal geosiyasi proseslər Türkiyə-Azərbaycan əməkdaşlığının enerji təhlükəsizliyi baxımından əhəmiyyətini bir daha vurğulayıb. Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum boru kəməri kimi infrastruktur sərmayələri təkcə Türkiyə və Azərbaycana yox, həm də regionun və Avropanın enerji təhlükəsizliyinə mühüm töhfələr verməkdə davam edir".

**R. T. Ərdoğan,**
**Türkiyənin Prezidenti.**



"Biz çox şey yaşadıq – hücumlar, təzyiqlər – amma bu zalda olan bir çox insan sübut edir ki, mübarizəsiz uğur olmaz. Uğur üçün yalnız mübarizə aparmaq kifayət deyil, eyni zamanda böyük ağrılardan da keçmək lazımdır. Donald Tramp da bunu sübut edir. Liberal, proqressiv insanlar bizim yaşadıqlarımıza dözə bilməzdilər. Biz yenidən ayağa qalxa bildik və Avropa liderləri üçün nümunə göstərdik. Digərləri gizlənirlər, jurnalistlərin arxasında dururlar, amma biz cəsarətlə onların qarşısında dayanırıq və ölkələrimizdə fantastik nəticələrə nail oluruq. Biz dözümlülüyün nümunəsiyik. Biz liberalları qorxuduruq və onlar küncdə gizlənirlər".

**Viktor Orban,**
**Macarıstanın Baş naziri.**



"Azərbaycan minifutbol yığması dünya çempionatının qalibidir! Komandamıza parlaq qələbəyə görə təşəkkür edirəm! Sizinlə fəxr edirik! Milli yığmamızın bütün üzvlərinə möhkəm cansağlığı, güc, enerji və yeni-yeni qələbələr və nailiyyətlər arzulayıram!"

**Mehriban Əliyeva,**
**Azərbaycanın birinci vitse-prezidenti.**



"Böyük Britaniya yeni fabriklər tikməklə hərbi-sənaye kompleksini inkişaf etdirir və gələcəkdə Rusiya ilə savaşmağa hazırdır".

**Con Hili,**
**Birləşmiş Krallığın müdafiə naziri.**

# REGİON XƏBƏRLƏRİ

## Marneuli: BAYDAR KƏNDİNDƏ YENİ TƏMİRDƏN ÇIXMIŞ İCTİMAİ MƏKTƏBDƏ TƏDRİS PROSESİ BƏRPA OLUNUB



*Gürcüstanın Təhsil, Elm və Gənclər naziri Aleksandre Tsuladze, Marneuli Bələdiyyəsinin meri Kənan Ömərov, nazir müavini Qiorqi Cinçaradze, Sakrebulonun sədri Amiran Qiorqadze və Kvemo Kartli üzrə dövlət müvəkkilinin müavini Nika Kobaxidze başa çatdırılmış işlərlə və müasir standartlara cavab verən təhsil mühiti ilə tanış olublar.*

Baydar kəndindəki ictimai məktəb yalnız sinif otaqları ilə məhdudlaşmır. Burada təbiət elmlərinə aid və kompüter laboratoriyaları, akt zalı, açıq və qapalı idman infrastrukturu, istirahət guşələri mövcuddur. Bundan əlavə, məktəbdə resurs otağı, həkim kabineti, yeməkxana və kitabxana fəaliyyət göstərir.

Məktəb təhlükəsizlik sistemləri ilə təchiz olunub və sağlamlıq imkanları məhdud olan insanlar üçün tam uyğunlaşdırılıb.

Bərpa işləri Təhsil və Elm İnfrastrukturunun İnkişafı Agentliyi tərəfindən həyata keçirilib. Məktəb 400 şagird üçün nəzərdə tutulub.

Məktəbin açılış mərasimində Təhsil və Elm İnfrastrukturunun İnkişafı Agentliyinin, Marneuli Bələdiyyəsi Yerli Özünüdarəetməsinin və Təhsil Resurs Mərkəzinin nümayəndələri də iştirak ediblər.

## Qardabani: LEVAN DEVDARİANİ ADINA 1 NÖMRƏLİ DÖVLƏT MƏKTƏBİNİN TAM BƏRPASI BAŞA ÇATIB



*Yeni təmir olunmuş məktəbi Gürcüstanın Təhsil, Elm və Gənclər naziri Aleksandre Tsuladze, Qardabani Bələdiyyəsinin meri Davit Karqareteli, Sakrebulonun sədri Mixeil Qedexauri və Kvemo Kartli regionunu üzrə dövlət müvəkkilinin müavini Nika Kobaxidze ziyarət ediblər.*

Nazir təmir edilmiş tədris otaqlarını gəzib, müasir standartlara cavab verən mühitdə təhsillərini davam etdirmələri münasibətilə müəllim və şagirdləri təbrik edib.

665 şagird yerlik məktəbdə tədris otaqları ilə yanaşı, elm və kompüter laboratoriyaları, kitabxana, resurs otağı və həkim məntəqəsi, istirahət məkanları, idman infrastrukturu da var.

Məktəb yeni kompüter, yanğın təhlükəsizliyi və istilik sistemləri ilə təchiz edilib; xüsusi ehtiyacları olan insanlar üçün uyğunlaşdırılıb; lifti, sanitariya qovşaqları var.

Məktəb bütün müvafiq tədris resursları və avadanlıqları ilə təchiz edilib.

## Telavi: BAYRAM TƏDBİRİ VƏ VOLEYBOL OYUNU KEÇİRİLİB



*Gürcüstanın əməkdar voleybol məşqçisi Tamaz Antadze adına Telavi İdman Kompleksində onun 90 illik yubileyi münasibətilə bayram tədbiri və voleybol matçı keçirilib.*

Tədbirdə Telavi Bələdiyyəsinin meri Levan Andriaşvili və mer müavini Pikria Kuşitaşvili, həmçinin Gürcüstan Voleybol Federasiyasının prezidenti Vaxtanq Meipariani, federasiya nümayəndələri, Tamaz Antadzenin ailə üzvləri və dəvət olunmuş qonaqlar iştirak ediblər.

Tədbirə gələn qonaqlar və gənc idmançılar Tamaz Antadzenin xatirəsini ehtiramla yad edib, uğurlarını xatırlayıblar.

## Bolnisi: UŞAQLARIN BEYNƏLXALQ MÜDAFİƏSİ GÜNÜ QEYD OLUNUB

*Bolnisi Bələdiyyəsinin dəstəyi və Bolnisi Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə Bolnisi şəhərində Uşaqların Beynəlxalq Müdafiəsi Gününə həsr olunmuş tədbir keçirilib.*




Bolnisi Mədəniyyət və İstirahət parkında uşaqlar üçün əyləncə guşəsi, attraksionlar, yelləncəklər, sabun köpüyü şousu, kimya şousu, həmçinin nağıl qəhrəmanlarının iştirakı ilə yürüş təşkil olunub.

Tədbir çərçivəsində Bolnisi Şəhər Mədəniyyət Evində yerləşən "İmedi" estrada ansamblı və musiqi məktəbinin qızlar xoru tamaşaçılara rəngarəng konsert proqramı təqdim edib.

Tədbirdə yerli özünüidarəetmə orqanlarının nümayəndələri iştirak ediblər.

# BEYNƏLXALQ HƏYAT

## KİV: İRANA QARŞI YENİ SANKSİYALARIN TƏTBİQ EDİLMƏMƏSİ BARƏDƏ GÖSTƏRİŞ VERİLİB

*Ağ Ev İrana qarşı yeni sanksiyaların tətbiq edilməməsi barədə göstəriş verib.*

Bu barədə "Wall Street Journal" öz mənbələrinə istinadən məlumat yayıb.

Ötən həftə Ağ Evin mətbuat katibi Karolin Livitt dövlət departamentinə, xəzinədarlıq departamentinə və Milli Təhlükəsizlik Şurasına İrana qarşı yeni sanksiyalar tətbiq etmək üçün bütün səyləri dayandırmağı tələb edən direktiv göndərib.

Nəticədə ABŞ prezidenti Donald Trampın İrana maksimum təzyiq göstərmək kampaniyası faktiki olaraq dalana dirənib.

Livittin müavini Anna Kelli nəşrə verdiyi şərhdə bu məlumatı birbaşa təkzib etməyib, lakin sanksiyalarla



bağlı istənilən yeni qərarın ya Ağ Ev, ya da müvafiq departamentlər tərəfindən elan ediləcəyini bildirib.

Qəzet qeyd edib ki, Vaşinqton sonuncu dəfə mayın 21-də Tehrana qarşı məhdudiyyətlər tətbiq edib, o vaxtdan bəri Maliyyə Nazirliyi yeni sanksiyaların elanını ən azı iki dəfə təxirə salıb.

Bununla belə, neft satışı və dondurulmuş İran aktivləri ilə bağlı əsas məhdudiyyətlərin qüvvədə qalacağı gözlənilir. Lakin Tramp administrasiyasının bəzi rəsmiləri fasilənin müddəti və əhatə dairəsi ilə bağlı aydınlığın olmamasından narahatdırlar. Bəzi rəsmilər hesab edir ki, bu yanaşmanın məqsədi İranın nüvə proqramı ilə bağlı incə danışıqlar fonunda gələcək məhdudiyyətləri diqqətlə nəzərdən keçirməkdir.

## DÜNYA TƏHLÜKƏDƏ: BUZ NƏHƏNGİ YAXINLAŞIR



*Qlobal istiləşmənin təsiri ilə iqlim sistemi dəyişməyə davam edir və bunun bariz nümunələrindən biri Cənubi Corciya adasına yaxınlaşan A23a aysberqidir.* Çəkisi bir trilyon ton və hündürlüyü onmərtəbəli bina qədər olan bu nəhəng buz kütləsi peyklər vasitəsilə diqqətlə izlənilir, çünki onun sahilə çatması yerli ekosistemə ciddi ziyan vura bilər.

Cənubi Corciya adası kral pinqvinlərinin koloniyalarına və cənub dəniz fillərinin yaşayış yerlərinə ev sahibliyi edir.

A23a aysberqi onların dənizə çıxışını bağlaya bilər. Keçmişdə belə hallar kütləvi aclıq və ekosistemin çökməsi ilə nəticələnib.

Alimlər bildirirlər ki, yaxın gələcəkdə aysberq parçalanaraq daha kiçik hissələrə bölünəcək, amma bu fraqmentlər də təhlükə mənbəyi olaraq qalacaq. Onların hərəkət trayektoriyası qeyri-müəyyən olduğundan, həm dəniz canlılarına zərər verə, həm də gəmiçilik üçün risklər yarada bilər.

## POLŞADA PREZİDENT SEÇKİLƏRİ BAŞA ÇATIB

*Polşa Milli Seçki Komissiyası prezident seçkilərinin ikinci turunun rəsmi nəticələrini açıqlayıb.*



Səslərin 100%-nin sayılmasına əsasən, seçkilərdə "Milli Yaddaş İnstitutunun" direktoru, mühafizəkar Karol Navrotski qalib gəlib.

Navrotski seçicilərin 50.89% səsini qazanaraq, Varşava meri və baş nazir Donald Tuskun rəhbərlik etdiyi "Vətəndaş Platforması" partiyasının namizədi Rafal Trzaskovskiyə qalib gəlib. Trzaskovski isə 49.11% səs toplayıb.

Məlumata əsasən, ikinci turda seçici fəallığı yüksək olub – 71.6%.

Qeyd edək ki, prezident seçkilərinin ikinci turu 18 mayda keçirilmiş ilk turun nəticələrindən sonra baş tutub. Birinci turda iştirak edən 13 namizəddən heç biri 50%-dən çox səs toplaya bilmədiyindən, seçkilər ikinci tura qalmışdı.

İkinci tura ən çox səs toplayan iki namizəd – Rafal Trzaskovski (31.36%) və Karol Navrotski (29.54%) keçmişdi.

# DİLİMİZİ DAHA YAXŞI ÖYRƏNƏK!

*(Əvvəli ötən sayımızda)*




Qəzetimizin 2 aprel 2021-ci il tarixli 23-24 saylı buraxlışında "Hörmətli oxucular!" sərlövhəli yazının davamı olaraq Azərbaycan dilinin zənginliyini, şirinliyini duymaq, bilmək, onu təbliğ etmək və geniş oxucu kütləsini maarifləndirmək üçün gündəlik danışıq vaxtı işlədilən və az işlədilən sözlərin mənaca təhlilinin oxuculara təqdimatını davam etdiririk:

**HƏCƏMƏT** *is. [ər.]* Xalq təbabətində: xəstə adama küpə salıb qan almaqdan ibarət müalicə üsulu, habelə müalicə məqsədilə qan almaq, qanı sormaq üçün işlədilən buynuzşəkilli alət.

*Şeyx Şabanın arvadı Gülsüm xala da məhəllədə məşhur idi, çünki yaxşı .. çöp ötürərdi, noxud falı açardı və həcəmət qoyardı.*

Ə. Haqverdiyev.

**HƏCM** *is. [ər.]* 1. Bir şeyin kub vahidləri ilə ölçülən uzunluğu, hündürlüyü və eni. *Həndəsi cismin həcmi. Kubun həcmi. Binanın həcmi.*

2. Ölçü, böyüklük, miqdar və s. baxımından bir şeyin tutumu. *Çəlləyin həcmi. Vaqonun həcmi. Külli miqdarda neft və -qaz yalnız böyük həcmdə boşluqları, yəni müəyyən məsamələri olan süxurlarda yerləşir.*

□ **Həcm ölçüləri** - maye və dənəvə maddələrin ölçüləri (litr, kubmetr və s.).

**HƏCV** *is. [ər.]* Bir şəxsə, ictimai quruluşa, yaxud həyatdakı mənfiliklərə qarşı yönəldilmiş istehzalı, kəskin, acı, kinayəli yazı. *Mirzə Ələkbər Sabirin həcvləri. "Molla Nəsrəddin" məcmuəsində çap olunmuş həcvlər.*

*Vətən! Çoxmu sevir məni o vətən?*
*Mənə həcv yazır hər yoldan ötən.*

S. Vurğun.

□ **Həcv etmək** - haqqında həcv yazmaq, ələ salmaq, istehza etmək.

*Niyə həcv eyləmisən Cürmini, ey can Yusif!*
*Dilü-canım sənə qurban ola, canan Yusif!*

S. Ə. Şirvani.

**HƏCVİYYAT** *top.* [*ər.* "həcv" söz. cəmi] *köhn.* Həcv məzmunlu əsərlər. // Boş, bayağı, mənasız əsərlər.

**HƏCVİYYƏ** *is. [ər.]* Qısa satirik şeir; epiqram.

**HƏCZ** *is. [ər.] köhn.* 1. Tutub saxlama, tutma.

2. Müsadirə.

**HƏDD** *is. [ər.]* 1. Sərhəd, hüdud.

2. *məc.* Hədd-hüdud, son, nəhayət. *Uşağın sevincinin həddi yox idi.*

□ **Hədd qoymaq** - hüdud qoymaq, məhdudlaşdırmaq, - normaya tabe etmək.

*Sevgiyə hədd qoymaq, düzü, günahdır.*

B. Vahabzadə.

**Həddən artıq (çox, ziyadə)** - son dərəcə çox, hədsiz.

*..İndi yazmalı mətləblər çoxdur, danışmalı sözlər həddən artıqdır.*

C. Məmmədquluzadə.

*Babayev onun həddən ziyadə böyük olan qaloşlarına baxıb birdən soruşdu.*

H. Seyidbəyli.

**HƏDD-HESAB** *is. [ər.]* Say, miqdar. *Qızıl Arslandan xəlifəyə məktub aparan heyəti İraqın hədd-hesaba gəlməyən atlıları istiqbal edirdi.*

M. S. Ordubadi.

**HƏDD-HÜDUD** *is. [ər.]* Hədd, son, axır, intəha.

*Ağbulaq dağlarının bütün gözəllik və üstünlükləri Sevildə.. həddi-hüdudu olmayan xoş bir təsir buraxırdı.*

S. Rəhimov.

**HƏDDİ-BÜLUĞ** *is. [ər.]* İnsanın cismən və ruhən yetkinləşdiyi və vətəndaşlıq hüququ aldığı yaş.

□ **Həddi-büluğa çatmaq (yetişmək, yetmək)** - həmin yaşa çatmaq. *Nəhayət, Səfər min zəhmətlə böyüyüb həddi-büluğa yetişdi.*

Çəmənzəminli.

**HƏDƏ** *is. [ər.]* Qorxu gəlmə, bir şeylə qorxutma, dəhşətləndirmə; hədə-qorxu, təhdid.

*Qızdan qəti söz aldım ki, atasının hədəsinə baxmayaraq, o bir də belə bir işə baş qoşmayacaqdır.*

S. Rüstəm.

**HƏDƏF** *is. [ər.]* 1. Tüfəng, top və s. atarkən güllənin, mərminin və s. dəyməli, vurmalı olduğu şey, yer; nişanə.

*Hədəfi nişan almaq. Güllə hədəfə dəymədi. ..Onlar hər ikisi birlikdə ova çıxır, Gülbaharın atdığı güllələr birbaş hədəfə dəyirdi.*

S. Rəhimov.

2. *məc.* Təqib, yaxud töhmət, istehza, müzakirə və s. obyekti olan adam. *Qurbanlı uzun-uzadı mühakimələr yürütdü və fikirlərində də Ruhnəvaz xanımı hədəf etdi.*

Çəmənzəminli.

3. *məc.* Məqsəd, qəsd, məram kimi götürülən şey.

[Gündüz Gülşənə:] *Bax, bibi, .. məktəbdə uşaqlar ilə dünya səyahətinə çıxmışdıq. Hər bir hədəfimiz bir dilək adası idi.*

C. Cabbarlı.

**HƏDƏQƏ** *is. [ər.] anat.* Göz almasının yerləşdiyi çuxur; göz çuxuru.

*Sultanın gözlərinin gilələri öz hədəqəsində tez-tez sağa-sola gedib-gəldi.*

İ. Hüseynov.

**HƏDƏRƏN-PƏDƏRƏN** *is.* Boş, mənasız, cəfəngiyat, tartan-partan, çərən-pərən sözlər.

*Əşi, cin-zad səni vurub, ağlını-zadını çaşdırmayıb ki, hədərən-pədərən danışırsan, buğda nədir?*

Çəmənzəminli...

**HƏDİK** *is.* Qarğıdalı, buğda, noxud, lobya, mərci və s.-dən suda (bəzən də ət və qovrulmuş soğanla) bişirilən xörək adı.

*Noxudu, buğdanı, mərcini, lobyanı bir-birinə qarışdırıb, qazana töküb hədik bişirdikdən sonra qonşulara paylayardılar.*

H. Sarabski.

**(Davamı var)**

**Hazırladı: Xaləddin Yolçuyev.**

# DÖVLƏT DİLİNİ ÖYRƏNMƏLİYİK!

***Hörmətli oxucular!***



Gürcüstanda yaşayan etnik azlıqların dövlətçiliyin əsaslarının möhkəmləndirilməsi, ölkənin ictimai-siyasi həyatında fəal iştirak etməsi, cəmiyyətə inteqrasiya olunmaqla onun tamhüquqlu vətəndaşı olması üçün gürcü dilini və tarixini bilmələri vətəndaşlıq borcudur. Dövlətin "Vətəndaş Bərabərliyi və İnteqrasiya üzrə 2021-2030-cu illər üçün dövlət strateji proqramı"na əsasən Gürcüstanda yaşayan etniklər 2030-cu ilədək gürcü dilini mənimsəməlidirlər. "Gürcüstan" qəzeti də yuxarıda qeyd olunanları nəzərə alaraq, bu mühüm işə öz töhfəsini vermək üçün gürcü dilini öyrənmək istəyənlərə yardım etmək məqsədilə yeni rubrika açıb. Bu rubrika altında siz gürcü dilinin əlifbasından başlayaraq dilin bütün özəllliklərinə bələd olacaqsınız.

## Gürcü əlifbası

**Gürcü əlifbası 33 hərfdən ibarətdir və aşağıdakı ardıcıllıqla düzülür.**

| Gürcü hərfləri | Azərb. hərfləri | Əlifba sırası ilə adı | Gürcü hərfləri | Azərb. hərfləri | Əlifba sırası ilə adı | Gürcü hərfləri | Azərb. hərfləri | Əlifba sırası ilə adı |
|---|---|---|---|---|---|---|---|---|
| ა | a | ან | მ | m | მან | ღ | ğ | ღან |
| ბ | b | ბან | ნ | n | ნარ | ყ | ğ* | ყარ |
| გ | q | გან | ო | o | ონ | შ | ş | შინ |
| დ | d | დონ | პ | p* | პარ | ჩ | ç | ჩინ |
| ე | e | ენ | ჟ | j | ჟან | ც | ≈ ts* | ცან |
| ვ | v | ვინ | რ | r | რაე | ძ | ≈ dz | ძილ |
| ზ | z | ზენ | ს | s | სან | წ | ≈ ts | წილ |
| თ | t | თან | ტ | t* | ტარ | ჭ | ≈ tç | ჭარ |
| ი | i | ინ | უ | u | უნ | ხ | x | ხან |
| კ | k* | კან | ფ | p | ფარ | ჯ | c | ჯან |
| ლ | l | ლას | ქ | k | ქან | ჰ | h | ჰაე |

**Qeyd: ≈ işarəsi "təxmini tələffüz"ü göstərir.**
*** işarəsi "sərt tələffüz"ü göstərir.**

Gürcü dili əlifbasında 5 sait : ა(a), ე(e), ი (i), (o) ო, უ (u) var, qalanı samit səslərdir. Gürcü dilində 8 spesifik xüsusiyyətli samit isə Azərbaycan dilində yoxdur. Onlar Azərbaycan dilində aşağdakı qaydada tələffüz olunur.

**კ - k*** (sərt tələffüz) **პ - p*** (sərt tələffüz) **ტ - t*** (sərt tələffüz)
**ყ - ğ*** (sərt tələffüz) **ც - ts *** (sərt tələffüz ) **წ ≈ ts** (təxmini tələffüz)
**ჭ ≈ tç** (təxmini tələffüz) **ძ ≈ dz** (təxmini tələffüz)

Azərbaycan dilindən fərqli olaraq, gürcü dilinin orfoqrafiyasında böyük və kiçik hərflər yoxdur. Çap və yazı hərfləri şəkil etibarı ilə eynidir. Oxunduğu kimi də yazılır.

* * *

### მომავალი თაობა (Momavali taoba) – Gələcək nəsil

**ბავშვები ჩვენი მომავლის ანარეკლია.** (Bavşvebi çveni momavlis anareklia.) – **Uşaqlar bizim gələcəyimizin aynasıdır.**

**მათ თვალებში იმედის სხივი ანათებს, და სწორედ მათშია ჩვენი ხვალინდელი დღის ძალა.** (Mat tvalebşi imedis sxivi anatebs, da tsored matşia çveni xvalindeli dğis dzala.) – **Onların gözlərində ümid işığı parlayır və sabahın gücü məhz onlardadır.**

**ბავშვები დაბადებიდანვე სუფთა, წრფელი და სიყვარულით სავსენი არიან.** (Bavşvebi dabadebidanve supta, tsrpeli da siğvarulit savseni arian.) – **Uşaqlar doğulandan bəri saf, səmimi və sevgi ilə dolu varlıqlardır.**

**ისინი არ ასამართლებენ, არ ატარებენ ზღვარს ისინი მხოლოდ გულით ხედავენ.** (İsini ar asamartleben, ar atareben zğvars isini mxolod qulit xedaven.) – **Onlar mühakimə etməzlər, sərhədlər tanımazlar – onlar qəlbləri ilə görürlər.**

**ჩვენი ვალია, რომ ბავშვებს მივცეთ განათლება, მზრუნველობა და თავისუფლება.** (Çveni valia, rom bavşvebs mivtset qanatleba, mzrunveloba da tavisupleba.) – **Bizim borcumuz uşaqlara təhsil, qayğı və azadlıq bəxş etməkdir.**

**რადგან ისინი ხვალ იკავებენ იმ ადგილს, რომელსაც დღეს ჩვენ ვფლობთ.** (Radqan isini xval ikaveben im adqils, romelsats dğes çven vplobt.) – **Çünki onlar sabah bizim sahib olduğumuz yerləri tutacaqlar.**

**სწორად გაზრდილი ბავშვი ძლიერი საზოგადოების საფუძველია.** (Stsorad qazrdili bavşvi dzlieri sazoqadoebis sapudzvelia) – **Düzgün böyüdülmüş uşaq güclü cəmiyyətin təməlidir.**

**ჩვენი სიტყვა მათთვის მაგალითია, ჩვენი ქცევა გაკვეთილი.** (Çveni sitğva mattvis maqalitia, çveni ktseva - qakvetili.) – **Bizim sözümüz onlar üçün nümunə, davranışımız isə dərsdir.**

**მომავალი თაობა სუფთა ფურცელია და ჩვენს ხელშია, რა დავწერთ მასზე.** (Momavali taoba supta purtselia da çvens xelşia, ra davtsert masze.) – **Gələcək nəsil tər-təmiz bir kağızdır və ora nə yazacağımız bizim əlimizdədir.**

**თუ გვინდა უკეთესი სამყარო, ის ბავშვობიდან უნდა ავაშენოთ.** (Tu qvinda uketesi samğaro, is bavşvobidan unda avaşenot.) – **Əgər daha yaxşı bir dünya istəyiriksə, onu uşaqlıqdan qurmağa başlamalıyıq.**

**ისინი აგვიშენებენ უფრო ნათელ, სამართლიან და მშვიდ სამყაროს.** (İsini aqvişeneben upro natel, samartlian da mşvid samğaros.) – **Onlar bizə daha parlaq, ədalətli və dinc bir dünya quracaqlar.**

## GÜRCÜSTAN MƏTBUATI NƏDƏN YAZIR?

www.sak.ge • sak@sak.ge

2 iyun 2025-ci il "SAKARTVELOS RESPUBLİKA"

### Gürcüstana səyahət Avropanın birçox ölkəsinə səyahətdən təhlükəsizdir

ABŞ Dövlət Departamentinin dərc etdiyi məlumata görə, Gürcüstan səyahətin təhlükəsiz olduğu və risklərin az olduğu ölkələr sırasındadır.

Dövlət Departamentinin tövsiyələrinə əsasən, "Visaguiderworld" təşkilatı da səyahət tövsiyələrini dərc edib. Sözügedən təşkilatın dərc etdiyi xəritədə Gürcüstan yaşıl rənglə qeyd olunub. Xəritədə həmçinin izah edilib ki, hər bir ölkə üçün təhlükəsizlik səviyyələri haqda məlumat ABŞ Dövlət Department-inin səyahət tövsiyələri əsasında verilib. Xəritədə göstərilən məlumatlar əsasında, Gürcüstan təhlükəsizlik baxımından Böyük Britaniya, İspaniya, İtaliya kimi Avropa ölkələrini qabaqlayır.

### Gürcüstan vətəndaşlarının böyük qrupu ABŞ-dan deportasiya edilib

Səhiyyə nazirinin müavini Qiorqi Tsaqareişvili Tbilisi Beynəlxalq Hava Limanında ABŞ-dan deportasiya olunmuş Gürcüstan vətəndaşlarını qarşılayıb.

Nazir müavini vətənə qayıdan vətəndaşlara dövlətin yardım göstərməyə hazır olduğunu bir daha təsdiqləyib.

Qiorqi Tsaqareişvili deportasiya olunmuş Gürcüstan vətəndaşlarına reinteqrasiya prosesi zamanı onların cəmiyyətə adaptasiyasını asanlaşdırmaq məqsədilə nəzərdə tutulmuş dövlət proqramları və dəstək xidmətləri haqqında ətraflı məlumat verib.

Onun sözlərinə görə, deportasiya olunmuş Gürcüstan vətəndaşlarının öz vətənlərində ləyaqətlə yaşamağa davam etmələri üçün onlara dəstək zəruridir.

ЕЖЕНЕДЕЛЬНАЯ ГАЗЕТА С ПОЛНОЙ ТЕЛЕПРОГРАММОЙ

ТБИЛИССКАЯ НЕДЕЛЯ

28 may - 3 iyun 2025-ci il "TBİLİSSKAYA NEDELYA"

BM.GE xəbər verir ki, Gürcüstanın Milli Turizm Administrasiyası turistləri cəlb etmək üçün Avropada yeni genişmiqyaslı reklam kampaniyasına başlayıb.

Kampaniya Böyük Britaniya, Almaniya, Avstriya, Fransa, İsveçrə, Polşa, Norveç, İsveç üçün nəzərdə tutulub və 32 şəhəri əhatə edir. Kampaniyanın məqsədi rəqəmsal platformalarda Gürcüstan haqqında daha ətraflı məlumat verməkdir. Kampaniya çərçivəsində sosial şəbəkələrdəki nəşrlər, media, bloqqerlərlə əməkdaşlıq, açıq hava reklamı və roud-şou nəzərdə tutulub.

"Btirish Airways" ilə əməkdaşlıq çərçivəsində London hava limanında ekranlarda Gürcüstan haqqında video və foto kollajlar nümayiş etdiriləcək və təyyarədə olan sərnişinlərə Gürcüstanın turizm potensialı haqqında 30 saniyəlik videolar təqdim olunacaq. Kampaniyada "National Geographic" və britaniyalı aşpaz Ceymi Oliverin iştirak etdiyi də məlumdur.

Öz növbəsində, İqtisadiyyat Nazirliyi "Gürcüstanda istehsal olunub" proqramı çərçivəsində marketinq kampaniyasına başlayıb.

Eləcə də "Wall Street Journal" və "The Economist" nəşrləri ilə yüz minlərlə dollar dəyərində reklam müqavilələri imzalanıb.

*26 may 2025-ci il*

### Alimlər "ağac dili"ni kəşf ediblər

Avstraliya Universitetinin və İtaliya Texnologiya İnstitutunun tədqiqatçıları ilk dəfə ağcaqayın ağaclarının günəş tutulmasına hazırlıq üçün istifadə etdikləri bioelektrik siqnalları qeydə alıblar. Sözügedən siqnalları ilk olaraq qədim ağaclar göndərir ki, bu da onların ekoloji hadisələr haqqında bəzi məlumatları yadda saxladıqlarına işarə edir.

*"Bu araşdırma müşahidə etdiyimiz lüstrasiyanın sinxron cavabıdır. Bu, meşələrin necə qarşılıqlı əlaqə qurduğunu və bir-birinə uyğunlaşdığını başa düşmək üçün açardır ki, bizi bitkilərin mürəkkəb səviyyəli davranışlarını kəşf etməyə aparır"*, - deyə professor Monika Qaliano bəyan edib.

Tədqiqat zamanı alimlər ağacların siqnallarını tutmaq məqsədilə xüsusi sensor üsullarından istifadə ediblər. Alimlər kvant sahəsi nəzəriyyəsindən istifadə edərək, Günəş tutulmasından bir neçə saat əvvəl bu siqnalların aktivliyinin kəskin artdığını aşkar ediblər. Siqnallar ən qədim ağaclar tərəfindən verilib.

Alimlərin sözlərinə görə, onlar bir növ "ağac dili" kəşf ediblər. Qeyd edək ki, sözügedən tədqiqat elm dünyasında hələ ki yenilikdir və ekosistemin iqlim dəyişikliyinə uyğunlaşmasını anlamaq istiqamətindəki kəşflər davam edir.

*"Yaşlı ağacların iqlim dəyişikliyinə ilk cavab verməsi onların xüsusi roluna işarə edir. Onlar keçmişdə olmuş ekolojik hadisələri saxlayan bir növ "yaddaş bank"ıdırlar. Bu tədqiqat qədim meşələrin qorunmasının önəmini təsdiqləyir ki, bu da ekosistemin bütünlüyünün qarantıdır..."* – deyə professor Qaliano qeyd edib.

## QANUN DƏYİŞİKLİKLƏRİ

# İYUN AYINDA GÜRCÜSTANDA HANSI SAHƏLƏRDƏ DƏYİŞİKLİKLƏR QÜVVƏYƏ MİNİR?

***1 iyun tarixindən etibarən, Gürcüstanda bir neçə dəyişiklik qüvvəyə minib.***

**Şəxsiyyət vəsiqəsinin dizaynı dəyişəcək:** Ədliyyə nazirinin qərarına əsasən, Gürcüstan vətəndaşının şəxsiyyətini təsdiq edən vəsiqənin, həmçinin müvəqqəti və daimi yaşayış, müvəqqəti identifikasiya elektron vəsiqəsinin görünüşü dəyişəcək. Sənədə əsasən, bu qərar 4 iyun tarixindən qüvvəyə minib. Köhnə vəsiqələr – yəni yeni əmr qüvvəyə minənədək verilmiş vəsiqələr qanunvericiliklə müəyyən olunmuş müddətdə qüvvədə qalacaq.

**Biometrik pasportun dizaynı dəyişir:** Bu barədə Ədliyyə nazirinin əmrində bildirilib. Sənədə əsasən, Gürcüstan vətəndaşının biometrik pasportu, diplomatik və xidməti biometrik pasportlar, Gürcüstanda statusa malik vətəndaşlığı olmayan şəxslərin və qaçqınların səyahət sənədlərinin texniki xüsusiyyətləri və formaları müəyyən olunub. Nazirin əmri 4 iyun tarixindən qüvvəyə minib və bu tarixdən etibarən vətəndaşlara yeni dizaynda pasportlar verilir. Sənədə əsasən, pasport blankı standart kitabça formatında, yuvarlaqlaşdırılmış künclərlə, cildi, 2 daxili səhifə, 36 kağız səhifə və 1 iki səhifədən ibarət polikarbonat elektron əlavədən (elektron məlumat səhifəsi) ibarət olacaq.

**Gürcüstanda parlament tərəfindən qəbul edilmiş və "FARA" adı ilə tanınan qanun qüvvəyə minib:** Qanuna əsasən, xarici mənbədən maliyyələşən və ictimai-siyasi fəaliyyət göstərən QHT-lər, media, şirkətlər və fiziki şəxslər "xarici agent" kimi qeydiyyatdan keçməlidirlər. Bu, həm birbaşa, həm dolayı xarici təsir və maliyyə alanlara aiddir. Qanun, reklam, məsləhətçilik, informasiya yayımı və digər təsiredici fəaliyyətləri də əhatə edir. Qanun tələblərinə əməl etməyənlər 10.000 lari cərimə və ya 5 ilə qədər azadlıqdan məhrum edilə bilər. Jurnalist və fiziki şəxslər də daxil olmaqla, hər kəs fəaliyyətinə dair materialları Korrupsiyaya Qarşı Mübarizə Bürosuna təqdim etməlidir.

**İrəvandan Batumi istiqamətində qatar reysləri başlayır:** İrəvan–Batumi–İrəvan sərnişin qatarı 14 iyun tarixindən fəaliyyətə başlayacaq. Bu qatar reysi ilə bağlı "Gürcüstan Dəmir Yolları" ASC ilə "Cənubi Qafqaz Dəmir Yolları" ASC arasında razılaşma imzalanıb. Razılaşmaya əsasən, qonşu ölkələr arasında sərnişin qatarları günaşırı hərəkət edəcək və Gürcüstanda dəniz kurort mövsümünə uyğun olaraq 1 oktyabradək davam edəcək.

**Şəhərlərarası sərnişin daşınmasında dəyişikliklər:** Avtovağzallar sertifikatlaşmaya hazırlaşır. 1 iyun 2025-ci ildən etibarən ölkədə fəaliyyət göstərən bütün avtovağzallar qanunla müəyyən edilmiş tələblərə cavab verməlidirlər. Yerüstü Nəqliyyat Agentliyindən bildirilib ki, hazırda ölkə üzrə 60-dan çox avtovağzal fəaliyyət göstərir və onlar sertifikat almağa hazırlaşır. Sertifikat almaq və texniki qaydalara uyğun infrastrukturu təmin etmək tələbi 1 iyun 2025-dən başlayaraq qüvvəyə minəcək. Amma bu müddət başa çatdıqdan sonra da avtovağzalların sertifikat alma imkanı olacaq. Bundan əlavə, planlaşdırılır ki, 2025-ci ilin 1 iyun tarixindən 150 km və daha uzaq məsafədə yerləşən şəhərlər arasında sərnişin daşınması yalnız avtobuslarla həyata keçiriləcək. İlk mərhələdə bu dəyişiklik Tbilisi, Kutaisi, Batumi, Zuqdidi və Telavi kimi böyük şəhərlərə şamil olunacaq.

# "GÜRCÜ ARZUSU"NDAN YENİ TƏŞƏBBÜS: KOMİSSİYA YAYIMÇILARIN MALİYYƏSİNİ ARAŞDIRA BİLƏCƏK

***Kommunikasiya Komissiyasına məhkəməyə müraciət etmək və məhkəmə vasitəsilə kommersiya banklarından və mikrobanklardan yayımçılar (media subyektləri) haqqında konfidensial məlumat tələb etmək imkanı verilir. Bu, yalnız o halda mümkün olacaq ki, yayımçı Komissiyaya qanunla verilmiş səlahiyyətlərin icrası üçün lazım olan məlumatı özü təqdim etməsin.***

Bu məsələ ilə bağlı bir neçə qanuna dəyişiklik edilir.

Qanunvericilik dəyişiklikləri paketi "Gürcü Arzusu" fraksiyasının deputatları tərəfindən hazırlanıb və artıq parlamentdə təşəbbüs kimi irəli sürülüb.

Təşəbbüs müəlliflərinin izahına görə, bu qanunun qəbul edilməsi ilə "Yayım haqqında" qanunun icrasına cavabdeh orqan olan Milli Kommunikasiya Komissiyasına tənzimləmələrin effektiv icrası üçün imkan yaradılır.

*"Yayım haqqında" qanun yayımçıların maliyyələşməsi ilə bağlı müəyyən qadağalar qoyur. Xüsusilə, yayımçının dövlət qurumu, siyasi partiya, vəzifəli şəxs və ya dövlət qulluqçusu tərəfindən maliyyələşdirilməsi qadağandır. Eləcə də yayımçının xarici qüvvədən – birbaşa və ya dolayı şəkildə, pul və ya digər maddi dəyərlər şəklində maliyyə yardımı alması qadağandır. Bu qaydaların icrasına isə Milli Kommunikasiya Komissiyası nəzarət edir.*

Qanun layihəsinin izahat məktubunda qeyd edilir ki, yayımçıların maliyyələşməsi ilə bağlı mövcud qadağaların effektiv icrasını icraedici orqana qanunvericilikdə nəzərdə tutulmuş mexanizmlər lazımi səviyyədə təmin etmir. Qanunun məqsədinə nail olmaq və onun icrasını təmin etmək üçün isə uyğun icra mexanizmlərinin mövcudluğu vacibdir.

*"Yayım haqqında" Gürcüstan qanununun 70-ci maddəsinin 9-cu bəndinə əsasən, Komissiya media xidmətləri təminatçılarından – o cümlədən yayımçılardan və videoməzmun paylaşma platforması operatorlarından qanun və normativ aktlarla müəyyən edilmiş funksiyaların icrasına dair məlumatları tələb edə bilər. Bunlara Gürcüstan qanunvericiliyinin, lisenziya və/və ya avtorizasiya şərtlərinin, davranış kodeksinin və müəllif hüquqları ilə bağlı tələblərin icrasını təsdiqləyən sənədlər daxildir.*

*Əgər tələb olunan məlumat təqdim olunmazsa, Komissiya bu platformalara və yayımçılara qarşı "Yayım haqqında" qanunda nəzərdə tutulmuş sanksiyaları – xəbərdarlıq, maliyyə cəriməsi və avtorizasiyanın dayandırılması kimi tədbirlər görə bilər. Lakin qeyd edilməlidir ki, bu sanksiyalar qanunun 66/1-ci maddəsində nəzərdə tutulmuş maliyyələşmə qadağasının effektiv icrasını təmin etmir, çünki Komissiyanın yayımçılar məlumat təqdim etmədikdə real maliyyə məlumatlarını əldə etmək üçün səmərəli vasitəsi yoxdur.*

*Qanunla nəzərdə tutulan sanksiyalar 'hiyerarxik' xarakter daşısa da, cəmiyyətin müxtəlif qrupların qeyri-qanuni təsirindən qorunması kimi ali və qanuni ictimai marağa xidmət edən normanın effektiv icra vasitəsi hesab edilə bilməz.*

*Avtorizasiyanın dayandırılması formasında nəzərdə tutulan başqa bir sanksiya isə yalnız pozuntu bir il ərzində üçüncü dəfə baş verərsə və ya aradan qaldırılmazsa tətbiq oluna bilər. Eyni zamanda, "Yayım haqqında" qanunun 8-ci maddəsinin 8-ci bəndinə görə, əgər yayımçı Komissiyanın qərarını məhkəməyə verərsə – istər avtorizasiyanın dayandırılması, istərsə də 5000 laridən çox cərimə tətbiqi hallarında Komissiyanın aktının qüvvəsi avtomatik olaraq dayandırılır.*

*Nəzərə alınmalıdır ki, yayımçının avtorizasiyasının dayandırılması məlumatlara çıxış baxımından cəmiyyət üçün müəyyən çətinliklər yaradır. Yayımçıların maliyyələşməsinin tənzimlənməsi onların və nəticə etibarilə cəmiyyətin müxtəlif təsirlərdən qorunmasına xidmət edir. Bu səbəbdən, belə legitim və yüksək ictimai marağı qorumaq üçün icraedici orqanın yayımçılardan məlumat tələb etmək imkanı olmadıqda üçüncü tərəfdən – banklardan bu məlumatı tələb edə bilməsi üçün səmərəli mexanizm yaradılmalıdır",*

– deyə qanun layihəsinin izahat məktubunda yazılıb.

# TBİLİSİDƏ MİR CƏLALIN *"BİR GƏNCİN MANİFESTİ"* ƏSƏRİ GÜRCÜ DİLİNDƏ TƏQDİM OLUNUB

***Tbilisidə keçirilən Beynəlxalq Kitab Festivalı çərçivəsində görkəmli Azərbaycan yazıçısı Mir Cəlalın məşhur "Bir gəncin manifesti" əsərinin gürcü dilində nəşrinin təqdimat mərasimi keçirilib.***

Kitab Azərbaycan Mədəniyyət Nazirliyinin sifarişi ilə nəşr olunub. Əsəri gürcü dilinə Gürcüstan Dövlət Mükafatı laureatı, tanınmış yazıçı və tərcüməçi İmir Məmmədli tərcümə edib.

Tədbirdə Azərbaycan nümayəndə heyəti, Azərbaycanın Gürcüstandakı səfiri Faiq Quliyev, səfirliyin əməkdaşları, iki ölkənin tanınmış elm, ədəbiyyat və mədəniyyət nümayəndələri, Azərbaycan icmasının üzvləri, festival iştirakçıları, gürcü yazıçılar, nəşriyyat təmsilçiləri və tələbələr iştirak ediblər.

Azərbaycan mədəniyyət nazirinin müşaviri Orxan Sadıqov (Fikrətoğlu), AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun elmi işçisi, filologiya elmləri doktoru Lalə Həsənova, tərcüməçi İmir Məmmədli, Ümumgürcüstan Rustaveli Cəmiyyətinin prezidenti, yazıçı Davit Şemokmedeli, Gürcüstan Yazıçılar Birliyinin sədri Bağater Arabuli çıxış edərək yeni nəşrin iki xalq arasında mədəni əlaqələrin inkişafına verdiyi töhfəni xüsusi vurğulayıblar.

Tədbir Azərbaycan ilə Gürcüstan arasında mədəni əməkdaşlığın möhkəmlənməsi baxımından mühüm addım kimi dəyərləndirilib.



*Poeziya*

## AYAZ BULUD



Ayaz Bulud 15 yanvar 1992-ci ildə Gürcüstanın Bolnisi Bələdiyyəsinin İncəoğlu kəndində anadan olub. Anadangəlmə görmə qabiliyyəti məhdud olmasına baxmayaraq, Ayaz uşaq yaşlarından musiqiyə, xüsusilə saz çalmağa dərin maraq göstərib. Onun musiqiyə olan həvəsi ailəsi tərəfindən dəstəklənmiş, atası ona saz alaraq bu sənətin sirlərini öyrənməsi üçün qonşu kənddə yaşayan ustad Aşıq Arif Ruqayevə müraciət edib. Ayaz qısa müddət ərzində saz ifaçılığı sənətini mükəmməl şəkildə mənimsəyib. Ayaz Bulud müxtəlif musiqi tədbirlərində fəal iştirak edərək Borçalının hüdudlarından kənarda da tanınır. O, Bakı şəhərində keçirilən gənc aşıqlar üçün televiziya müsabiqəsində üçüncü yer tutub və Azərbaycan Aşıqları Birliyinin hazırladığı audio disklərdə çıxışları ilə yer alıb. Ayaz hazırda yurdumuzda ümidverici gənc aşıq kimi tanınır və musiqi tədbirlərində fəal iştirakını davam etdirir. Aşıq sənətində yalnız musiqiçi kimi deyil, həm də şair-aşıq kimi tanınan Ayaz, müxtəlif mövzularda şeirlər yazmaqdadır. Onun "Dağların", "İllər, məni qocaltmağa tələsmə", "Sənnən xəbərsiz" və "Yaşayır" kimi şeirləri xalq arasında geniş yayılıb. Ayaz Bulud, həm musiqi sahəsindəki uğurları, həm də şeir yaradıcılığı ilə Borçalıda və Azərbaycanın bölgələrində yaxşı tanınır. O, musiqi və ədəbiyyat sahəsində öz zəhməti və istedadı ilə bir çox insana ilham mənbəyinə çevirilib.

### YAŞAYIR

Sinəmdə sazımla gəzdim, dolandım
Mən sazımla, sazım mənlə yaşayır.
Eldə xatırlandım, eldə anıldım,
Mən sazımla, sazım mənlə yaşayır.

Aşılmaz dağları sazımla aşdım,
Bəzən çovğun, bəzən çənlə savaşdım,
Qaynar bulaq kimi qaynadım, daşdım
Mən sazımla, sazım mənlə yaşayır.

"Kərəmi"nin yanğısına alışdım,
Közə döndüm, alovuna qarışdım,
"Dilqəmi"də, dərddən, qəmnən danışdım
Mən sazımla, sazım mənlə yaşayır.

"Ruhani" çalanda, xəyala daldım,
Az da olsa, şükür, eldə ad aldım,
Andım ustadları, hey, yada saldım,
Mən sazımla, sazım mənlə yaşayır.

Ayazam, elimdən hey ilham aldım,
Telli sazla haray saldım, ucaldım,
Sevənlər eşqinə bir hava çaldım,
Mən sazımla, sazım mənlə yaşayır.

### SƏNNƏN XƏBƏRSİZ

Yanmışam odunda yenə həsrətin,
Mən səni sevmişəm, sənnən xəbərsiz.
Əsiri olmuşam saf məhəbbətin,
Mən səni sevmişəm, sənnən xəbərsiz.

Solubdu könlümdə bağçalar, bağlar,
Dolan gözlərimdə hey kədər çağlar,
Sızlayır sinəmə çəkdiyin dağlar ,
Mən səni sevmişəm, sənnən xəbərsiz.

Günəşli gündüzüm olubdur gecə,
Sənsiz ötən günü sanıram heçə,
Oxladın qəlbimi inan, gizlicə ,
Mən səni sevmişəm, sənnən xəbərsiz.

Sevənin sevgidir dövləti, varı,
Yalnızam, könlümün artır qubarı,
Yara qovuşmaqdı ömrün baharı ,
Mən səni sevmişəm, sənnən xəbərsiz.

Əyandır ellərə aşiqin halı,
Bir kimsə görməsin bu qilü-qalı,
Gəzir xəyalımda eşqin vüsalı ,
Mən səni sevmişəm, sənnən xəbərsiz.

Tab gətirib, mən dözmürəm hicrana,
Ucaldı fəryadım bil asimana,
Qıyma, məhbbətim düşə tufana ,
Mən səni sevmişəm, sənnən xəbərsiz.

Ayazam, bu əhdə ilqarım qəti,
Unutmaq olarmı səntək afəti?
Küsk ün talehimin şanı-şöhrəti ,
Mən səni sevmişəm, sənnən xəbərsiz.

# MÜƏLLİMİN ŞAGİRDİN HƏYATINDAKI ROLU

Sizi müəyyən bir məqsədə çatmağa ruhlandıran, seçimlərinizdə, qərarlarınızda, gizli potensialınızın kəşfində və bir çox həyati məsələlərdə rolu olan bir müəlliminiz olubmu? Müəllim-şagird münasibətlərinin formalaşmasında mühüm rol oynayan amillərdən ən əsası müəllimin şagirdə bağışladığı ilkin təəssüratdır. Müəllim təkcə tədris etdiyi fənninin peşəkarı deyil, eyni zamanda şagirdə fərdi yanaşma, ona psixoloji toxunuşu ilə də (yaxşı mənada) təsir etməyi, sinfə daxil olduqda estetik görünüşü, səliqəliliyi, fərdi yanaşması, pozitivliyi və ünsiyyət bacarığı ilə də xoş təəssürat bağışlamağı bacarmalıdır.

Müəllimlər təkcə dərs zamanı deyil, həm də sinifdən kənarda şagirdlərinin həyatında mühüm rol oynayır. Şagirdləri ruhlandırmaq çətin məsələdir və onların potensialını üzə çıxarmaq və uğur qazandırmaq üçün müəllim onların həyatında əsas amildir. Müəllimlərindən ilham alan şagirdlər bəzən heyrətamiz şeylərə nail ola bilirlər. Heç kim müəllimlərdən daha çox ilham verə bilməz və daha çox bir şagirdin həyatına toxuna bilməz. Müəllimlər şagirdlərə ən çox ehtiyac duyduqları anda, doğru anda gəlirlər. Özləri haqqında, görə bilmədiyi şeyləri göstərirlər. Onlar başqalarının, o cümlədən özlərinin görə bilmədiyi və qəbul edə bilmədiyi potensialı görürlər. Hər şeydən əvvəl, onlar şagirdlərə öz yolunu tapmaq və qeyri-mümkün hesab edilən şeyin mümkünlüyünü göstərmək üçün cəsarət verirlər. Doğru zamanda müdaxilə edən ruhlandırıcı, dəstəkləyici müəllim şagirdləri daha xoşbəxt gələcəyə istiqamətləndirə bilər.

Örnək olan müəllimlər şagirdlərinə dərin və davamlı təsir göstərə bilər. Onlar öz nümunələri ilə şagirdləri tam potensiallarını kəşf etməyə, özünə inam yaratmağa və hörmət, empatiya, məsuliyyət kimi dəyərləri inkişaf etdirməyə təşviq edə bilərlər.

Həqiqilik və dürüstlük müəllimlərin nümunə kimi təcəssüm etdirməli olduğu əsas keyfiyyətlərdir. Müəllimlər səmimi və dürüst olmaqla şagirdlərinin etibarını qazanırlar. Əsl müəllim şəxsiyyəti şagirdləri həm də özləri olmağa və inanclarına sadiq qalmağa ruhlandırır və həvəsləndirir. Dürüstlük, davranış və qərarlarında ardıcıl olaraq öz dəyər və prinsiplərini yaşadan müəllimlər tərəfindən nümayiş etdirilir. Dürüstlüklə hərəkət etməklə müəllimlər şagirdlərin əməl etmələri üçün açıq- aydın örnəyə çevirilirlər.

Müəllimlərin dərsdənkənar şagirdlərlə ünsiyyət tərzi böyük əhəmiyyət kəsb edir. Açıq və hörmətli ünsiyyət şagirdlərə, onların fikir və narahatlıqlarının ciddiyə alındığını göstərir. Müəllimlər şagirdlərinin hisslərini və ehtiyaclarını anlamaq üçün diqqətlə dinləməli və empatiya göstərməlidirlər. Empatik münasibət şagirdlərə özlərini rahat və dəyərli hiss etdirir.

Sinifdən kənarda tədris və öyrənmə həvəsini nümayiş etdirən müəllimlər şagirdləri dərindən ruhlandıra bilər. Peşəsinə sadiq müəllim şagirdlərin öyrənməyə marağını oyadır və onları maraqlanmağa və suallar verməyə təşviq edir. Müəllimlər öz fənlərinə olan sevgisini bölüşməli və şagirdlərə öyrənmənin təkcə iş deyil, həm də sevgi ilə işləmək olduğunu göstərməlidirlər.

Müəllimlər şagirdlərini öz sosial məsuliyyətlərini dərk edən vətəndaşlar olmağa, eyni zamanda şagirdin cəmiyyətə fəal şəkildə inteqrasiyasına müsbət töhfə verməyə təşviq edə bilərlər. Belə ki, sosial iştirak və ya ətraf mühitin mühafizəsi layihələri kimi icma fəaliyyətləri icma hissini gücləndirir və şagirdlərə fərd olaraq ətraf mühitə və cəmiyyətə necə müsbət təsir göstərə biləcəklərini göstərir.

Müəllimlər nümunə kimi təkcə akademik nailiyyətlərə diqqət yetirməməli, həm də şagirdlərinin fərdi gücünü və istedadlarını tanımalı və qiymətləndirməlidirlər. Şagirdlərinin özünə inamını artırmaq və onları bacarıqlarını inkişaf etdirməyə həvəsləndirməklə müəllimlər müsbət şəxsi imicini və sağlam özünə hörmətini inkişaf etdirə bilərlər. İstedadlarını kəşf edib inkişaf etdirə bilən tələbələr daha çox həvəslənəcək və öz potensiallarına çatacaqlar. Şagirdlərə onların yalnız sinfin bir hissəsi kimi deyil, fərd kimi qəbul edildiyini göstərmək vacibdir.

Müəllimlər çətinlikləri fürsət kimi görərək və uğursuzluqları konstruktiv şəkildə həll etməklə şagirdlərinə müsbət münasibət və möhkəmlik aşılaya bilərlər. Nikbin münasibət və səhvlərə görə ruhdan düşməmək müvəffəqiyyətli bir həyat üçün vacib bacarıqlardır. Müəllimlər öz təcrübələrini bölüşə və şagirdlərinə cəsarət və inam vermək üçün çətinliklərlə necə mübarizə apardıqlarını göstərə bilərlər.

Müəllimlərin nümunəsi şagirdlərin hərtərəfli inkişafı üçün çox vacibdir. Həqiqilik, dürüstlük, empatik ünsiyyət, sosial bacarıqlar, öhdəlik və məsuliyyət hissi müəllimlərin nümunə kimi təcəssüm etdirməli olduğu keyfiyyətlərdən bəziləridir. Şagirdlərinin güclü tərəflərini kəşf etməyə, sosial məsuliyyət götürməyə və ömür boyu öyrənməyə dəyər verməyə təşviq etməklə müəllimlər gəncləri cəmiyyətin özünə inamlı, məsuliyyətli və mərhəmətli üzvləri kimi yetişdirməyə kömək edir.



Nümunə kimi müəllimlər öz unikal mövqelərini dərk etməli və tələbələrinin gələcəyini müsbət formalaşdırmaq fürsətindən istifadə etməlidirlər. Müəllimlər təkcə bilik verməklə deyil, həm də müsbət dəyərləri və münasibətləri modelləşdirməklə qalıcı təəssürat buraxa və şagirdləri vasitəsilə cəmiyyətə müsbət təsir göstərə bilərlər. Sonda, əminliklə deyə bilərəm ki, hər insanın həyatında, seçimində, uğurunda və ya uğursuzluğunda, mütləq bir müəllimin toxunuşu vardır!

**Şəhla İSMAYILOVA,**
**Bolnisi Gənclər və Təhsil Mərkəzinin nəzdindəki Geta (Aşağı Güləver) İcma Mərkəzinin ingilis dili müəllimi.**

## TARİXDƏ NÖVBƏTİ HƏFTƏ



**6 iyun**

•1654 — İsveçrə kraliçası Kristina (1632 – 1654) tacdan imtina edib. Beləliklə, İsveçrədə Vasa xanədanının dövranı qurtarıb (qeyd edək ki, Avropada 30-illik müharibənin ən mühüm iştirakçılarından biri olan Kristinanın atası Qustav II Adolf bu xanədanın üzvü olub) və 1720-ci ilə qədər davam edən Pfalts-Tsveybryüken xanədanı başlayıb.

•1664 — Hollandiyanın müstəmləkəsi olan Yeni Amsterdam İngiltərənin əlinə keçəndən sonra York hersoqu Ceymsə hədiyyə edilib və bu tarixdən Nyui-York (Yeni York) adlandırılıb.

•1932 — Çili diktatoru Karlos İbanyes de Karlo sosialist hərbi xunta tərəfindən devirildikdən sonra, Çili soisialist respublikası elan edilib. Yeni rejim 13 sentyabr 1932-ci ilə qədər davam edib.

**7 iyun**

•1099 — Birinci Səlib yürüşü: Fatimi dövlətinin (Misir və Fələstin ərazisindəki şiə dövləti) idarəçiliyindəki Qüds şəhəri Bolonyalı Qotfridin başçılıq etdiyi Avropa səlib qoşunu tərəfindən mühasirəyə alınıb. Səlibçilər şəhəri 15 iyul 1099-cu ildə işğal ediblər. Şəhər 88 il sonra, 2 oktyabr 1187-ci ildə Səlahəddin Əl-Əyyubi tərəfindən avropalılardan geri alınıb.

•1981 — İsrail Hərbi Hava Qüvvələri İraqın Osirak nüvə reaktorunu məhv edərək Səddam Hüseynin nüvə proqramına son qoyublar.

•2019-cu ildən 7 iyun BMT tərəfindən Ümumdünya Qida Təhlükəsizliyi Günü təyin edilib. Bu tarix sağlam həyat tərzi prinsiplərinin, o cümlədən qida təhlükəsizliyinin təmin edilməsi yolu ilə əldə olunması ilə bağlıdır.

**8 iyun**

•1815 — Vyana Konqresinin qərarlarının yekun aktı Polşa Krallığının Rusiya İmperiyasının tərkibində formalaşması haqqında Rusiya-Avstriya-Prussiya müqaviləsinin V maddəsini təsdiq edib. Beləliklə, Polşa Rusiya imperiyasının tərkibinə girib. Ölkə müstəqilliyini 1918-ci ildə bərpa edib.

•Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası tərəfindən 2009-cu ildə qəbul edilən № A/RES/63/111 qətnamə əsasında, 8 iyun Ümumdünya Okeanlar Günü təyin edilib.

**9 iyun**

•1534— Şimali Amerikada fransız müstəmləkəçiliyinin əsasını qoyan səyyah Jak Kartye müasir ABŞ və Kanada ərazilərində axan Müqəddəs Lourens çayını kəşf edib.

•1822 — Mühəndis Çarlz Qrem ABŞ-da süni çənəni patentləşdirib.

•1989 — **Rəşid Behbudov, Azərbaycan müğənnisi, vəfat edib.**

•1994 —Qazaxıstan Prezidenti Nursultan Nazarbayev paytaxtın Almatıdan Astanaya köçürülməsini elan edib.

**10 iyun**

•1793 — Parisdə dünyada ilk ictimai zoopark tikilib.

•1886—Həkimlər şurası Bavariya (Alman dövlətlərindən biri) kralı II Lüdviqi lazımsız qalaların tikintisi üçün dövlət büdcəsindən yüksək xərcləmələr etdiyinə görə dəli elan edib.

•1939 — **Varlam Xurodze, gürcü yazıçı, publisist, pedaqoq, vəfat edib.**

•1941 — Alman quru qüvvələrinin baş komandanlığı SSRİ-yə qarşı Barbarossa əməliyyatının 22 iyun tarixində başlamasını əmr edib.

**11 iyun**

•1938 — İkinci Çin-Yapon müharibəsi: ən şiddətli döyüşlərdən biri olan Vuhan döyüşü başlayıb. Döyüşlər 27 oktyabr 1938-ci ilə qədər davam edib. Nəticədə yaponlar taktiki, çinlilər isə strateji qələbə qazanıblar.

•1975 — Yunanıstan parlamenti ölkənin hal-hazırkı konstitusiyasını qəbul edib.

•Hondurasda Tələbə Günü qeyd olunur. Günün rəsmi statusu olmasa da, tələbələr və böyük sinif şagirdləri arasında olduqca məşhurdur. 11 iyunun seçilməsi təsadüf deyil – bu gün, 1797-ci ildə hondurasllı şair və keşiş, milli qəhrəman və ölkənin ilk universitetinin banisi Xose Trinidad Reyes anadan olub.

**12 iyun**

•1668 — İsveçin Lund şəhərində Avropanın ən qədim universitetlərindən biri yaradılıb.

•1898 — **Filippin respublikasının birinci prezidenti Emilio Aqunaldo ölkəsinin İspaniyadan müstəqilliyini elan edib.**

•1920 — Panama kanalı rəsmi olaraq ABŞ tərəfindən açılıb.

# HƏFTƏNİN SEÇİLMİŞLƏRİ

## VARLAM XURODZE



***Varlam Xurodze 13 oktyabr 1883-cü ildə Kutaisi quberniyasının Matxoci kəndində anadan olub.*** 1904-cü ildə peşəkar seminariyanı bitirərək Merevi kəndinə müəllim təyin edilib. İlk şeirini 1903-cü ildə, "Ananın qurbanı" adlı ilk hekayəsini isə 1904-cü ildə nəşr edib. Bir il sonra Lançxutiyə köçüb. Məhz burada o çar rejiminə qarşı siyasi fəaliyyətə qoşulub. 1907-1910-cu illərdə Şukreti kəndinin Qara Daş İstehsalçıları Məktəbində təhsil alıb. 1910-cu ildə Moskvanın Manyavski Universitetinin tarix-filologiya fakültəsinə daxil olub və buranı 1913-cü ildə bitirib. Sözügedən illərdə o, inqilabçı fəaliyyətini davam etdirib. 1913-cü ildə Varlam Xurodze həbs edilib və Həştərxan şəhərinə sürgün edilib, lakin oradan qaçmağı bacarıb və Kutaisiyə dönərək, burada gizli fəaliyyətini davam etdirib. Bir il sonra, 1914-cü ildə yenidən həbs edilərək, Həştərxana sürgün edilib. Varlam Xurodze Həştərxanda 1917-ci ilə qədər qalıb. 1917-ci ilin sentyabrında Xoni rayonunun peşəkar seminariyasında gürcü dili və ədəbiyyatı müəllimi olaraq işləməyə başlayıb.

1924-cü ildə Varlam Xurodze Tbilisiyə köçüb və burada 1927-ci ilə qədər keçmiş 14-cü fəhlə məktəbində dərs deyib. 1927-ci ildən Tbilisi Maarif İdarəsinin nəzdində gürcü dili və ədəbiyyatı kabinetinin müdiri və metodisti olub. Həmin il "Təhsil işçi"si jurnalında "Ana dilinin və ədəbiyyatın öyrənilməsi haqda" adlı yazı nəşr edib. Tbilisi Dövlət Universitetində və Qori Pedaqoji İnstitutunda gürcü dilinin metodologiyası və yeni gürcü ədəbiyyatının tarixindən mühazirələr oxuyub.

Varlam Xurodze gürcü ədəbiyyatında və təhsilində olduqca əhəmiyyətli iz buraxıb. O birçox romanın, ədəbi-tənqidi yazının, məktəblər üçün dərs kitabının müəllifidir. Varlam Xurodzenin məşhur romanları "Şota Brolidze", "Üç nəfər", "Gürcüstanda Qriqali"dir. Müəllifin başqa ədəbi əsərləri arasında "Bir tikə çörək uğrunda", "İki qəbr", "Mən lalam", "Ölüm və həyat" adlı hekayələri, "Qara ilan" və "Doğma yuvaya doğru" adlı dramaturgiya əsərlərini qeyd etmək olar.

Varlam Xurodzenin ədəbi-tənqidi yazıları bunlardır: "Gürcü ədəbiyyatında simvolizm", "Ədəbiyyat haqqında məktub", "Fəhlə sinfi və incəsənət", "Emil Verharn", "Akaki Tsereteli", "İki tərz", "İlia Çavçavadze ədəbiyyat tənqidçisi kimi", "Rustavelinin ictimai idealı" və s.

Varlam Xurodze 10 iyun 1939-cu ildə Tbilisidə vəfat edib.

## RƏŞİD BEHBUDOV



***Rəşid Behbudov 14 dekabr 1915-ci ildə Tbilisidə anadan olub.*** Atası Məcid Behbudov əslən Şuşalı xanəndə, anası Firuzə Vəkilova isə pedaqoq və maarifçi olub. Rəşid məktəb illərində məktəb xorunda oxuyub. 1933-cü ildə dəmiryol texnikumuna daxil olub və burada həvəskar tələbə orkestrini təşkil edib. Qırmızı Orduda xidmət etdiyi müddətdə ordu ansamblında solist olub. Xidmətdən sonra o, Tbilisinin estrada qruplarından birində qısa müddət oxuyub. 1934-cü ildən İrəvan Filarmoniyasının solisti olub. 1938-1944-cü illərdə bəstəkar A. Ayvazyanın rəhbərlik etdiyi Ermənistan Dövlət Caz Orkestrinin solisti olub. 1943-cü ildə Bakı Kinostudiyası "Arşın mal alan" filmini yaratmaq qərarına gəlir. Filmdə baş rola Rəşid Behbudov dəvət olunub. 1945-ci ildə film efirə çıxıb və çox tez bir zamanda nəinki Azərbaycanda, bütün Sovet İttifaqında böyük populyarlıq qazanıb. 1946-cı ildə bu filmdəki Əsgər roluna görə Rəşid Behbudov "Stalin" mükafatı ilə təltif olunub.

1949-cu ildə Rəşid Behbudov Budapeştdə keçirilən Gənclərin və Tələbələrin Ümumdünya festivalında çıxış edib.

Rəşid Behbudov 1944-1956-cı illərdə Azərbaycan Filarmoniyasının, 1953-1960-cı illərdə M. F. Axundov adına Azərbaycan Opera və Balet Teatrının solisti olub.

Bütün Sovet respublikaları ilə yanaşı Argentina, Bolqarıstan, Belçika, Çili, Çin, Efiopiya, Finlandiya, Hindistan, İran, İraq, İtaliya, Misir, Türkiyə və s. ölkələrdə geniş repertuarla çıxış edən Rəşid Behbudov, Azərbaycan xalq mahnılarının və Azərbaycan bəstəkarlarının vokal əsərlərinin xarici ölkələrdə populyarlaşmasında çox böyük rol oynayıb. Rəşid Behbudov Hindistana səfəri haqqında "Uzaq Hindistanda" kitabını yazıb.

Xanəndə 1957-ci ildə Azərbaycan Filarmoniyasında caz üslublarını və Azərbaycan xalq çalğı alətlərini birləşdirən konsert ansamblı yaradıb və 1959-cu ilə qədər onun bədii rəhbəri olub.

Rəşid Behbudov birçox mükafatla təltif edilib: "Azərbaycan SSR əməkdar artisti" fəxri adı — 1946-cı il; "Azərbaycan SSR xalq artisti" fəxri adı — 20 iyun 1951-ci il; "SSRİ xalq artisti" fəxri adı — 9 iyun 1959-cu il; "Qırmızı Əmək Bayrağı" ordeni — 1 fevral 1966-çı il; Azərbaycan SSR Dövlət mükafatı — 1978 (konsert proqramlarına görə) və s.

Rəşib Behbudov 9 iyun 1989-cu ildə Moskvada vəfat edib.

## FİLİPPİN



Filippin və ya rəsmi adı ilə Filippin Respublikası, Cənub-Şərqi Asiyada yerləşən ada ölkəsidir. Filippin Sakit Okeanın qərb hissəsində, cənubdan və cənub-şərqdən İndoneziya və şimaldan da Tayvan arasında yerləşir və 7107 adadan ibarətdir. Adalar üç qrupdur: Luson, Visay adaları və Mindao. Qərbdən Cənubi Çin dənizi, şərqdən Filippin Dənizi, Sulavesi dənizi ilə yuyulur. Ölkənin paytaxtı Luson adalarında yerləşən Manila şəhəridir. Böyük şəhərləri Keson-siti, Davao, Kalukan və Sebudur. Əhalisinin sayı 2024-cü ilin məlumatına əsasən, 112,9 milyon nəfərdir. Ölkənin rəsmi dilləri inglis və Avstroneziya dil ailəsinə aid taqal (Filippin) dilidir.

**Tarixi:** Qədimdə Filippin adalarında yerli qəbilələr və Tayvan adasından gələn malay-Polineziya kökənli qəbilələr yaşayıb. XIII-XIV əsrlərdə adalara ərəb və müsəlman səyyah və tacirlər gəlib. XV əsrdə ərəb əsilli Əbu Bəkir Filippin adalarının qərb hissəsində yerləşən Sulu Sultanlığını qurub. Təqribən eyni dövrdə malayziyalı Şərif Kabunsuan cənubda yerləşən Mindao adasında Maqindanao Sultanlığını qurub. 1521-ci ildə ada ispaniyalı səyyah Fernan Maqellan tərəfindən kəşf edilib. Həmin tarixdən adalarda İspaniya idarəçiliyi başlayıb. 1543-cü ildə ispanlar adaları İspaniya kralı II Filippin şərəfinə Filippin adlandırıblar.

1896-cı ildə respublikaçı fikirlərlə formalaşmış ziyalıların başçılıq etdiyi Filippin inqilabı başlayıb. 1898-ci ildə Kuba və Filippin müstəqillik mübarizələrinə dəstək bəhanəsi ilə ABŞ İspaniyaya qarşı müharibə başlayıb. İspaniyanın məğlub olması ilə adalar bu dəfə ABŞ-nin idarəçiliyinə keçib. İkinci Dünya Müharibəsi zamanı, 1941-ci ildə Filippin Yaponiya tərəfindən işğal edilib. 1944-1945-ci illərdə ABŞ-nin başçılıq etdiyi müttəfiq qoşunları adaları Yaponiyadan geri alıblar. 1946-cı ildən Filippin tamamilə müstəqil dövlət olub.

**Coğrafiyası:** Filippin arxipelaqının böyük adalarının əksəriyyəti vulkanik mənşəlidir. Ən böyük dağ silsiləsi Kordilyer, Lusüon adasının mərkəzi və şimal hissələrində yerləşir. Ən yüksək zirvə Mindao adasındakı Apo vulkanıdır (2954 m). Filippinin ən böyük çayı olan Caqayan Luson adasında axır və uzunluğu 354 km-dir. Filippindəki göllərin əksəriyyəti vulkanik fəaliyyət nəticəsində əmələ gəlib.

**İqtisadiyyatı:** Filippin aqrar-sənaye ölkəsidir. BVF-nin məlumatına görə, Filippin iqtisadiyyatı dünyada 33-cü yerdədir. Ən inkişaf etmiş sənaye sahələri elektronika, tekstil, kimya, ağac emalı, qida və əczaçılıqdır. Kənd təsərrüfatına balıqçılıq və meşə təsərrüfatı daxildir. Filippin kokos, banan, düyü və ananasın ən böyük ixracatçısıdır. Filippin əsasən yarımkeçiricilər və elektronika, nəqliyyat vasitələri, geyim, mis məhsulları, neft məhsulları və meyvələr ixrac edir. Filippin əsasən ABŞ, Yaponiya, Çin, Sinqapur, Cənubi Koreya, Hollandiya, Honq-Konq, Almaniya, Tayvan və Taylandla ticarət edir.




**Dövlət quruluşu və siyasəti:** Filippin ikipalatalı parlament və müstəqil məhkəmə sistemi olan prezident respublikasıdır. Prezident birbaşa ümumxalq səsverməsi yolu ilə 6 il müddətinə seçilir, namizədliyini uzatmaq və ya yenidən namizədliyini irəli sürmək hüququ yoxdur. Ölkənin ən yüksək qanunverici orqanı iki palatadan ibarət Konqresdir: Filippin Senatı (24 yer) və Filippin Nümayəndələr Palatası (316 yer). Senatorlar 6 illik müddətə (3 ildən bir növbə ilə 12 nəfər, lakin ardıcıl iki müddətdən çox olmamaq şərti ilə), Nümayəndələr Palatasının üzvləri üç il müddətinə (ardıcıl olaraq üç müddətdən çox olmamaqla) seçilirlər. Filippin Birləşmiş Millətlər Təşkilatının qurucu üzvü və fəal iştirakçısıdır, Cənub-Şərqi Asiya Millətləri Assosiasiyasının üzvüdür və NATO-nun əsas müttəfiqidir.

**Mədəniyyəti:** Filippin mədəniyyətinə Şərq və Qərb mədəniyyətlərinin elementləri daxildir. Buraya müxtəlif Asiya ölkələrinin, eləcə də İspaniya və Amerika mədəniyyətlərinin elementləri daxildir. Dörd Filippin Barok kilsəsi YUNESKO-nun Ümumdünya İrs Siyahısına daxil edilib: Manilada San Agustin Kilsəsi, Norte İlocos Paoay Kilsəsi, İlocos Surdakı Nuestra Senora de la Asuncion (Müqəddəs Məryəm) kilsəsi və İloiloda Santo Tomas de Villanueva kilsəsi.

# GÜRCÜSTAN

Qəzet 1921-ci ildən nəşr olunur
გაზეთი 1921 წლიდან იბეჭდება

"საქართველო"
"SAKARTVELO"

Qəzetimiz milli sərvətimizdir
ჩვენი გაზეთი ეროვნული სიმდიდრეა




İDMAN İDMAN

## PSJ TARİXİNDƏ İLK DƏFƏ UEFA ÇEMPİONLAR LİQASININ QALİBİ OLDU




***Fransanın "Pari Sen-Jermen" (PSJ) klubu UEFA Çempionlar Liqasının finalında İtaliya təmsilçisi "İnter"i darmadağın edərək tarixində ilk dəfə bu turnirin qalibi olub.***

Matç 5:0 hesabı ilə başa çatıb.

Parislilərin heyətində Əşrəf Hakimi (12"), Dezire Due (20", 60"), Xviça Kvaratsxelia (73"), Senni Meyulyu (86") fərqləniblər.

## SAQARECO BƏLƏDİYYƏSİNİN QARAÇÖP MAHALINDA KEÇİRİLƏN BEYNƏLXALQ AÇIQ TURNİR BAŞA ÇATIB

***Saqareco bələdiyyəsinin Qaraçöp mahalında "Qafqaz Arena"nın təşkilatçılığı ilə keçirilən beynəlxalq açıq turnir yekunlaşıb.***



Turnirdə Gürcüstanla yanaşı, Azərbaycan, Rusiya, Türkiyə, İran və Özbəkistandan olan idmançılar iştirak ediblər.

Təşkilatçıların verdiyi məlumata görə, yarışda həm böyüklər, həm də kiçiklər arasında müxtəlif çəkilərdə döyüşən 10-dək Gürcüstan idmançısı qalib olub.

Təşkilatçılar, yarışın əsas məqsədinin gənclər arasında idmana marağın artırılması və bu sahədə beynəlxalq əməkdaşlığın gücləndirilməsi olduğunu bildiriblər.

YUBİLEY

## 35 İLDƏN SONRA BİR ARADA



Bu günlərdə Marneuli Bələdiyyəsindəki Qızılhacılı - kəndinin 2 saylı ictimai məktəbinin 1990-cı il məzunları məktəbi bitirmələrinin 35-ci ildönümünü qeyd etdilər. Yubiley tədbiri rayonun füsunkar Candar gölünün sahilindəki restoranda baş tutdu.

Məzunlar bu əlamətdar tədbirə öz keçmiş müəllimlərini də dəvət etmişdilər. Tədbirdə iştirak edən hər kəsin (həm məzunların və həm də müəllimlərin) üzündə sevinc, fərah və təbəssüm hiss olunurdu.

Aparıcı həmin dövrdə məktəbin direktoru olmuş, hal-hazırda isə Gürcüstan Birləşmiş Aşıqlar İttifaqının sədri (GBAİ) Xəlil Huseynov idi. Hamı deyib-gülür şənlənirdi.

Tədbirdə çıxış edən müəllimlər Xəlil Hüseynov, Səyyad Ayvazov, Gülabatın Məmmədova (hal-hazırda həmin məktəbin direktoru), İradə Dadaşova və Şamil Ziyadəliyev məzunları 35 illik yubiley münasibətilə təbrik edərək xoş arzularını bildirdilər.

Tədbir boyu Qarabağlı müğənni Kəmalə Soltanova Cəfər Eldar oğlunun və Eltac Orucovun müşayiəti ilə öz məlahətli ifaları ilə iştirakçılara xoş əhval-ruhiyyə bəxş etdi.

Sonda məzunlar sevimli müəllimlərinə öz hədiyyələrini təqdim etdilər.

**Şamil Ziyadəliyev,**
**„Gürcüstan"ın xüsusi müxbiri.**

ƏDƏBİ - BƏDİİ TƏQDİMAT

## TBİLİSİDƏKİ AZƏRBAYCAN MƏDƏNİYYƏTİ MUZEYİNDƏ ƏDƏBİ-BƏDİİ TƏQDİMAT KEÇİRİLİB

***Paytaxt Tbilisidəki M. F. Axundzadə adına Azərbaycan Mədəniyyəti Muzeyində bir neçə kitabın təqdimat mərasimi baş tutub.***

Tədbir Mirvarid Dilbazi Poeziya Məclisinin təşkilatçılığı ilə keçirilib.

Təqdim olunan kitablar sırasında Vaqif Osmanlının "Ulu Öndərin canlı əsəri", Tərlan Musayevanın Ümummilli Liderə həsr etdiyi "Ulu Öndərə mənəvi borcum" və Güllü Eldar Tomarlının tərtib etdiyi "Babamın papağı, nənəmin kəlağayısı" kitabları yer alıb. Bu nəşrlər Azərbaycanın görkəmli şəxsiyyətlərinin irsini, milli-mənəvi dəyərlərini yaşatma və təbliğ məqsədi daşıyır.

Tədbirdə ictimai - fəal xanımlar, məktəblilər, ziyalılar və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Mirvarid Dilbazi Poeziya Məclisinin rəhbəri çıxışında bu cür tədbirlərin gənc nəsildə milli kimlik və tarixə bağlılıq hissini gücləndirdiyini qeyd edib.

Tədbir çərçivəsində Azərbaycanın milli-mədəni irsinin rəmzlərindən sayılan kəlağayıların sərgisi də təşkil olunub. Sərgi iştirakçılarda böyük maraq doğurub və milli ruhun yaşadılması baxımından xüsusi təəssürat yaradıb.

## KÖHNƏ TBİLİSİNİN AB-HAVASI



Foto E.Şahvələdindir.

MƏDƏNİYYƏTLƏRARASI DİALOQ

## GÜRCÜSTAN ŞAİRLƏRİ ŞUŞADA KEÇİRİLƏCƏK VAQİF POEZİYA GÜNLƏRİNƏ DƏVƏT OLUNUBLAR

***Gürcüstan şairləri bu ilin iyul ayında Şuşada keçiriləcək Vaqif Poeziya Günlərinə dəvət olunublar.***



Dəvəti mədəniyyət nazirinin müşaviri Orxan Fikrətoğlu Gürcüstan Yazıçılar Evində keçirilmiş görüşdə səsləndirib.

Yazıçılar Evinin direktoru Ketevan Dumbadzenin də iştirak etdiyi görüşdə azərbaycanlı və gürcü müəlliflər arasında ədəbi əlaqələrin dərinləşdirilməsi imkanları müzakirə olunub.

K. Dumbadze Gürcüstan və Azərbaycanın müəllif və oxucularını birləşdirəcək layihələrin, həmçinin hər iki ölkənin bölgələrinə tanışlıq ekskursiyalarının təşkilinin əhəmiyyətini vurğulayıb.

Görüşdə ikidilli kitabların nəşri, tərcümə layihələri və iki ölkənin yazıçıları arasında ədəbi əlaqələrin inkişafı ilə bağlı gələcək əməkdaşlıq planları, müasir gürcü pyeslərinin Azərbaycanda, Azərbaycan əsərlərinin isə Gürcüstanda səhnələşdirilməsi məsələsi ətrafında da fikir mübadiləsi aparılıb.

Qeyd edək ki, Vaqif Poeziya Günləri Heydər Əliyev Fondu və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə keçirilir.

YENİ NƏŞR

## AZƏR MUSAOĞLUNUN İLK ŞEİRLƏR KİTABI İŞIQ ÜZÜ GÖRÜB




Qardabanili gənc yazar və "Yeni Yol" qəzetinin redaktoru Azər Musaoğlunun ilk şeirlər toplusu – "Mezozoy erasında yadplanetli" işıq üzü görüb. Tbilisidəki "Mtsignobari" nəşriyyatında 300 tirajla çap olunan bu kitabda müəllifin son illərdə qələmə aldığı poetik nümunələr toplanıb.

Kitabın redaktoru və ön söz müəllifi Gürcüstan Yazıçılar Birliyinin Azərbaycan bölməsinin rəhbəri Allahverdi Təkləli, korrektoru Aynurə Əliyeva, dizayneri isə Elsevər Əhmədovdur. Kitab Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatının maliyyə dəstəyi ilə çap olunub.

Poetik toplunun təqdimatı və imza günləri də oxucu marağını üzə çıxarıb. İlk təqdimat mayın 4-də Tbilisidəki Gürcüstan Yazıçılar Evində, ikinci imza günü isə 24 may tarixində M. F. Axundov adına Azərbaycan Mədəniyyəti Muzeyində, üçüncü təqdimat isə XXVII Beynəlxalq Kitab Festivalı çərçivəsində "ExpoGeorgia" sərgi mərkəzində təşkil olunub.

Ədəbi çevrələrdə artıq adı tanınmağa başlayan A. Musaoğlu təkcə şeirləri ilə deyil, həm də hekayələri ilə seçilir. Onun "Katarsis", "İtburnu" və "Fidan" adlı hekayələri müxtəlif illərdə nüfuzlu ədəbi müsabiqələrdə uğurlar qazanıb.

"Gürcüstan" kollektivi olaraq həmkarımızı bu uğurlu addımı münasibətilə səmimi qəlbdən təbrik edir, ona yeni-yeni bədii zirvələr arzulayırıq!


**Qəzetin bank hesabı**
**გაზეთის საბანკო ანგარიში**
**შპს გაზეთ „გურჯისტანი" ს/კ 203863792**
**ანგ. № GE03LB0111185703773000**
**სს ლიბერთი ბანკი SWİFT: LBRTGE22**

Baş redaktor: Xaləddin YOLÇUYEV

Redaktor müavini: Binnət MƏMMƏDOV

Redaksiyanın ünvanı:
Tbilisi şəh. Tsereteli pr. 142, I mərtəbə.
E-mail: Gurcustan_1921@mail.ru İNDEKS 66444
Əlaqə telefonu: +995 32 222 04 76

Qəzet "Kolori" nəşriyyatında çap olunur.
Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir. Müəllifin mövqeyi ilə redaksiyanın mövqeyi müxtəlif ola bilər.